AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ ELMLƏR AKADEMİYASI ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

QULİYEVA NƏRGİZ MƏLİK QIZI

# MÜSTƏQİLLİK İLLƏRİ AZƏRBAYCAN AİLƏSİ

BAKI – ELM – 2006

**Elmi redaktoru: MƏMMƏDOV ADİL ƏLİ OĞLU**
**tarix elmləri doktoru, professor.**

**Rəyçi: 1. MUSAYEVA TAMİLLA HƏŞİM QIZI**
**tarix elmləri doktoru, professor.**
**2. MƏMMƏDOV ARİF MƏHƏMMƏD OĞLU tarix elmləri doktoru.**

Quliyeva N.M. Müstəqillik illəri Azərbaycan ailəsi. Bakı. «Elm». 2006.

**LSBN 5 - 8066 – 1720 – X**

Əsərdə müstəqillik illərində Azərbaycan respublikasında bazar iqtisadiyyatı əsasında formalaşan ailələrdə gedən proseslər, həmçinin müstəqillik illərində azərbaycanlıların ailə-məişət həyatının bəzi aktual məsələləri, müasir ailədə və ictimai həyatda Azərbaycan qadınlarının mövqeyi, nikah və toy mərasimlərinin vəziyyəti, müasir ailələrdə böyüklərin yeri, bəzi valideynlərin və uşaqların dövlət himayəsinə verilməsinin sosial-psixoloji əsasları, Azərbaycanda qaçqınların və məcburi köçkünlərin ailə-məişət məsələləri əhatə olunur.

Q $\frac{05000000}{655\ (07) - 2006}$

**«Elm» nəşriyyatı, 2006.**

# GİRİŞ

Ailə problemi etnoqrafiya elminin əsaslı sahəsidir. Cəmiyyətdə gedən bütün seslər tarixən ailə-məişət məsələlərinə nüfuz etmişdi baxımdan XX əsrin 90-cı illəri də əhəmiyyətli yer tutur.

Məlumdur ki, 1922-1991-ci illər ərzində Azərbaycanda Sovet hakimiyyəti quruldu. 70 il ərzində Sovet dövləti çərçivəsində yaşayan Azərbaycanın iqtisadiyyatı inkişaf etdi, mədəni səviyyəsi yüksəldi. Beləliklə, SSRİ dövlətinin dağılması ərəfəsində artıq Azərbaycanda iqtisadi, elmi-texniki və mədəni potensialın yaranması ilə respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün zəmin yaranmışdı.

1991-ci il sentyabrın 14-də Azərbaycan Kommunist Partiyasının 23-cü fövqəladə qurultayında Azərbaycan Kommunist Partiyası ləğv olundu.

18 oktyabr 1991-ci ildə Azərbaycan yenidən müstəqilliyini əldə etdi.

Müstəqil Azərbaycan 30 yanvar 1992-ci ildən Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, 2 mart 1992-ci ildən Birləşmiş Millətlər Təşkilatına, 19 sentyabr 1995-ci ildən Müstəqil Dövlətlər Birliyinə, 17 yanvar 2001-ci ildən isə Avropa Şurasına daxil oldu.

Ərazisi 86,6 min kv. km, əhalisi 8141,4 min nəfərdir. Şəhər əhalisi 50,8%, yəni 4130, 1 min nəfər, kənd əhalisi isə 49,2%, yəni 4011,3 min nəfərdir.

Azərbaycanlı kişilər 3988,8 min nəfər (49,9%), qadınlar 4152,6 min nəfər 51,%-dir.

Paytaxtı Bakı şəhəridir. Bakıda 1817,9 min nəfər əhali yaşayır. Pul vahidi manatdır.

Azərbaycanda il ərzində təbii artım 0,8%-dir. Əsasən əhalinin təbii artım hesabına çoxalması XX əsrin 50-70-ci illərinə təsadüf edir.

Azərbaycan Cənubdan İranla 756 km, Türkiyə ilə 15 km, Şimaldan Rusiya ilə 390 km, şimali-qərbdən Gürcüstan ilə 480 km, qərbdən Ermənistan ilə 1007 km həmsərhəddir.

Müstəqil Azərbaycanın dövlət rəhbəri Prezidentdir. O, ümumi gizli səsvermə yolu ilə 5 ildən bir seçilir. Azərbaycan Respublikasının qanunvericilik hakimiyyətini Milli Məclis həyata keçirir. Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarətdir.

Müstəqil Azərbaycanda bir sıra partiyalar fəaliyyət göstərir. Onlardan: Yeni Azərbaycan Partiyası, Müsavat Partiyası, Xalq Cəbhəsi Partiyası, Ana Vətən Partiyası, Kəndli Partiyası, Demokratik sahibkarlar Partiyası, Kommunist Partiyası, Azərbaycan Liberal Partiyası, Yurddaş Partiyası və başqalarının adlarını çəkmək olar.

Müstəqil Azərbaycanda bir Muxtar Respublika, 65 rayon, 69 şəhər, 130 şəhər tipli qəsəbələr, 1444 kənd ərazi vahidləri (keçmiş kənd sovetləri), 4345 kənd yaşayış məntəqələri yerləşir (26).

Azərbaycanda ümumi uzunluğu 2 min kilometrdən artıq olan müxtəlif istiqamətlərdə uzanan dəmiryol xətləri respublika ərazisinin bütün əsas hissələrini bir-biri ilə birləşdirməklə və 26 min kilometrdən çox uzunluğa malik şosse yolları bütün rayonların qarşılıqlı əlaqələrini təmin edir, eyni zamanda yüksək inkişaf etmiş Gəmiçilik və hava nəqliyyatı da nəzərə alınsa, Azərbaycanın bir çox dünya ölkələrinə çıxışı vardır (3,314).

Akademik Asəf Nadirovun gəldiyi nəticələrə görə müstəqil dövlətimizin onillik dövrünü həyatın bütün sahələrində, o cümlədən iqtisadiyyat sferasında cərəyan edən hadisələrin mürəkkəbliyinə görə bir-birindən fərqlənən üç mərhələyə bölmək olar.

Birinci mərhələ müstəqilliyin əldə edilməsindən 1993-cü ilin ortalarına qədər olan dövrü əhatə edir. Bu dövrdə ölkə iqtisadiyyatında böhran sürətlə dərinləşir, əhalinin həyat səviyyəsi durmadan pisləşirdi. Respublikada hökm

sürən özbaşınalıq şəraitində istehsalın həcmi xeyli aşağı düşdü, böyük miqdarda müəssisələrdə isə, ümumiyyətlə məhsul buraxılışı tamamilə dayandı.

İkinci mərhələ 1993-cü ilin ortalarından 1995-ci ilin sonuna qədər olan dövrü əhatə edir. Xalqın çağırışı ilə yenidən respublika rəhbərliyinə qayıdan möhtərəm Heydər Əliyevin böyük müdrikliklə həyata keçirdiyi siyasət nəticəsində dövlət müstəqilliyimizin qorunub saxlanılması, ictimai-siyasi sabitliyin təmin edilməsi ilə ölkə daxilində həyatın normal axarına düşməsi, beynəlxalq aləmdə Azərbaycana olan marağın tədricən artması mövcud problemlərin həlli ilə məşğul olmaq üçün şərait yaratdı. «Əsrin müqaviləsi» adı ilə ilk beynəlxalq neft müqaviləsi imzalandı. Bu müqavilə Azərbaycan haqqında əsl həqiqətləri üzərə çıxarmaq işinə təkan verdi, müstəqil hüquqi-demokratik dövlət qurmaq niyyətini də bütün dünyaya inandırdı. Bütövlükdə bu mərhələ Azərbaycan iqtisadiyyatının geriləməsinə son qoyulması və onun dirçəlişi mərhələsinə keçməsi üçün zəmin yaradılması ilə səciyyələnir.

1996-cı ildən başlayaraq indiyə qədər davam edən üçüncü mərhələnin əsas yekunu iqtisadiyyatın intensiv inkişaf yoluna çıxarılmasıdır. Böhran dayandırıldı və 1996-cı ildə ilk dəfə olaraq istehsalın bir çox sahələrində artım meylinin əsası qoyuldu. Təbii ki, bu əsaslı dönüşün təməlində ilk növbədə həyata keçirilən geniş miqyaslı iqtisadi islahatlar dayanır. 1994-2000-ci illərdə Azərbaycan iqtisadiyyatının inkişafına 6 milyard dollar həcmində xarici investisiya cəlb edilmişdir. Ümumiyyətlə, 1995-ci illə müqayisədə əsas kapitala yönəldilmiş xarici investisiya 6,4 dəfə artmışdır. Bu investisiyaların 56 faizi bilavasitə neft sektoruna, qalan hissəsi isə iqtisadiyyatın başqa sahələrinin inkişafına yönəldilmişdir. Bakı-Tbilisi-Ceyhan əsas neft kəmərinin və «Şahdəniz» qaz yatağının istismara verilməsi

Azərbaycanın iqtisadi potensialında xüsusi yer tutur (3, 421-423).

2000-ci ildə Azərbaycanda taxıl istehsalı 1,5 milyon tona çatmışdı. 2000-ci ildə 489 min ton kartof, 261 min ton bostan məhsulları, 477 min ton meyvə məhsulları, 781 min ton tərəvəz məhsulları toplanılmışdı.

2000-ci ildə Azərbaycanın dünyanın 122 ölkəsi ilə iqtisadi əməkdaşlığı yaranmış, ticarət əlaqələrinin ümumi həcmi 2,9 milyard dollardan çox həddə çatmışdı (3, 423).

Azərbaycanda ailə qurmaq üçün qanunla müəyyənləşdirilmiş minimum yaş kişilər üçün 18, qadınlar üçün 17 yaşdır..

Nikah tarixi VADQ (Vətəndaşlıq Aktları Dövlət Qeydiyyatı) orqanlarında qeydiyyatdan keçmə tarixi hesab edilir.

Nikah – kişi və qadının bir-birinə və uşaqlarına qarşı hüququnu və vəzifəsini müəyyənləşdirən münasibət formasıdır. Ər və arvad arasında hüquqi münasibət, onların nikahlarının VADQ orqanlarında qeyd etdirməsidir.

Əhalinin təbii hərəkatının cari statistikası yalnız hüquqi cəhətdən qeyd olunmuş nikahları nəzərə alır. Əhalinin siyahıyaalınmasında isə qeydə alınıb-alınmamasından asılı olmayaraq faktiki nikahda olanlar hesaba alınır (1,21).

Boşanma (nikahın pozulması) – birlikdə yaşayan ər-arvadın nikahlarının son hüquqi ləğvi tərəflərə təkrar nikaha daxil olmaq hüququ verir. Nikah, VADQ orqanlarında boşanma qeydiyyatından sonra pozulmuş hesab olunur (1,20).

Azərbaycanda 1990-cı ildən başlayaraq hər il 31 Dekabr – Dünya Azərbaycanlıları Günü kimi qeyd olunur.

Məlumdur ki, dünyada 50 milyona yaxın Azərbaycanlı yaşayır. Onların 8 milyon nəfəri Azərbaycan Respublikasında, 30 milyonu İranda, digərləri isə Türkiyədə, Rusiyada, Almaniyada, İraqda, Səudiyyə

Ərəbistanında, Böyük Britaniyada, İndoneziyada, Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda, Fransada və Yaponiyada məskunlaşmışlar.

Dünya Azərbaycanlılarının təşkilatlanma prosesi Heydər Əliyevin təşəbbüsu ilə 1990-cı ildən başlanmışdır. Onların 1990 və 1997-ci ildə İstanbulda, 1997-ci ildə Los-Ancelesdə və 1998-ci ildə Vaşinqtonda konqresləri keçirilmişdi.

Dünyanın 30-dan çox ölkəsində azərbaycanlıların birləşdiyi 100-dən çox ictimai, milli-mədəni cəmiyyət, təşkilat, mərkəz, dərnək, ocaq, əncüman vardır. Azərbaycanlıların Rusiyada 40-dan çox, Avropa ölkələrində 50-yə yaxın təşkilatı mövcuddur. Yer üzərində yaşayan azərbaycanlıların koordinasiya mərkəzi Azərbaycan Prezidenti İcra Aparatı İctimai-Siyasi Şöbəsinin «Xaricdə Yaşayan Azərbaycanlılarla İş» strukturudur.

2001-ci il mayın 23-də Azərbaycan prezidenti Heydər Əliyev Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi barədə sərəncam verdi.

2001-ci il noyabr ayının 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Qurultayda 37 ölkədən gəlmiş nümayəndələr iştirak edirdi. Xarici ölkələrdən 560-dan çox nümayəndə və qonaq gəlmişdi.

Qurultayda «Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası» və onun idarə heyətinin sədri AMEA-nın prezidenti, akademik Mahmud Kərimov seçildi.

Əlaqələndirmə Şurasının köməyi ilə 150 ölkədə nümayəndəlik yaradıldı. 2002-ci ildə «Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi» təşkil edildi.

2006-cı il martın 16-da Bakıda Dünya Azərbaycanlılarının II qurultayında dünyanın 49 ölkəsindən 1218 nəfər nümayəndə və 388 nəfər qonaq iştirak etmişdi.

Qurultayda AMEA-nın prezidenti, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurası İdarə Heyətinin

sədri Mahmud Kərimov çıxışında qeyd etdi ki, 2002-ci ildə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin təsis edilməsi və müvafiq qanunun qəbul olunması Azərbaycan dövlətinin daha da intensivləşməsinə, dünya azərbaycanlılarının təşkilatlanması prosesinin keyfiyyətcə yeni mərhələyə daxil olmasına şərait yaratdı (30).

# I FƏSİL. MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANLILARIN AİLƏ-MƏİŞƏT HƏYATININ BƏZİ AKTUAL MƏSƏLƏLƏRİNƏ DAİR

## Ë 1. Müstəqillik illəri Azərbaycan ailəsi

XX əsrin 90-cı illəri Azərbaycan ailəsində özünəməxsus yer tutur. Belə ki, 18 oktyabr 1991-ci il müstəqilliyini qazanan Azərbaycanda artıq yeni siyasi, sosial-iqtisadi münasibətlərin əsası qoyuldu və bu əsas üzərində azərbaycanlı ailəsi də formalaşmağa başladı.

Məlumdur ki, Azərbaycanda 1990-cı ildə 7218,5 min nəfər əhali yaşayırdı. Onlardan 3973,1 min nəfəri əmək qabiliyyətlilər idi. Əmək qabiliyyətli kişilər 2001,8 min nəfər, qadınlar isə 1971,3 min nəfər idilər.

Qeyd etmək lazımdır ki, əmək qabiliyyətli yaşdan cavan olanlar 2519,3 min nəfər idi. Onların 1293,8-i kişilər, 1225,5 min nəfərini isə qadınlar təşkil edirdi.

Əmək qabiliyyətli yaşdan yuxarı yaşda olanlar isə 726,1 min nəfər idi. Onlardan kişilər 228,5 min nəfər, qadınlar isə 497,6 min nəfər idilər (26, 36).

Azərbaycanlı ailələrin ailə tərkibi haqqında daha dəqiq məlumat vermək məqsədi ilə 1989-cu il əhalinin siyahıya alınmasının nəticələrinə müraciət edək. Həmin dövrdə Azərbaycanda yaşayan əhalinin 6645544 nəfəri ailələrdə, 235173 nəfəri ailədən kənar, 138023 nəfəri tək yaşayanlar idi. Onlardan 3423793 kişinin 3167242-si ailələrdə, 201851-i ailədən kənar, 53484-ü tək yaşayırdı. 3537385 nəfər qadının isə 3478302-si ailələrdə, 33322-si ailələrdən ayrı, 84539-u isə tək yaşayanlar idi.

1989-cu ildə Azərbaycanda yaşayan bütün əhalinin 3805885 nəfəri şəhərlərdə, 3215293 nəfəri kəndlərdə yaşayırdılar (19, 37).

Şəhərlərdə yaşayan əhalinin 3541973 nəfəri ailələri ilə birlikdə, 160347 nəfəri ailələrindən kənar, 101127 nəfəri isə

tək yaşayırdılar. Tək yaşayan şəxslərdən 44863 nəfər kişi, 56264 nəfər qadın şəhərlərdə, 8621 nəfər kişi və 28275 nəfər qadın isə kəndlərdə yaşayırdılar (19,37-38).

Tək yaşayanlar arasında şəhərlərdə adətən qadınlar, kəndlərdə isə kişilər çox idilər.

Kəndlərdə 3215293 nəfərin 3103571-i ailələri ilə bərabər, 74826 nəfəri ailələrindən kənar, 36896 nəfəri tək yaşayırdılar.

Qeyd etmək lazımdır ki, şəhərlərdə tək yaşayanlar ilə, kəndlərdə tək yaşayanların həyat tərzi fərqlənir.

Belə ki, şəhərlərdə adətən, yaşlı şəxslər, yaxud da evlənməmiş, evlənməyə hazırlaşan şəxslər tək təsərrüfatlarda yaşayırlar. Lakin, kəndlərdə tək yaşayanların bir hissəsi müstəsna olmaqla, digər qismi bilavasitə ailələrin himayəsində yaşayırlar.

Ümumiyyətlə, 1989-cu ildə Azərbaycanda mövcud olmuş 1381409 ailənin 784429-u şəhər, 596980-ı isə kənd ailəsi idi. Ailələrin orta sayı 4,8 nəfər, o cümlədən kənlərdə 5,2; şəhərlərdə 4,5 idi (28, tab 37-38).

1989-cu ildə mövcud olan 824361 nuklear ailələrin 377621-i kəndlərdə yaşayırdılar. Qeyd etmək olar ki, hər bir təknikahlı ailənin yaranması nuklear (kiçik, sadə və individual) ailələrin əsasını təşkil edir. Nuklear ailələr (latınca nuklear – özək, məğz, mahiyyət, əsil, əsas) ər – arvad, uşaqlar, övladları olmayan ər-arvad, hələ evlənməmiş uşaqları olan ata və anadan ibarət sadə ailələrdir.

Azərbaycanda 1989-cu ildə nuklear ailələrdən1 uşağı olanlar 136234 (o cümlədən kəndlərdə 77621)  ailə, 198034-ü iki uşağı olan, (o cümlədən kənd yerlərində 56885) ailə, üç uşağı olanlar 152860 (o cümlədən kənd yerlərində 73858) ailə, dörd uşağı olanlar 82655 (o cümlədən kənd yerlərində 48834) ailə vardı. 5 və çox uşağı olan 65642 ailənin isə 41132-si kəndlərdə yaşayanlar idi.

Araşdırmalar göstərir ki, ailənin inkişafı mərhələlərlə xatakterizə olunur. İlkin mərhələ nikaha girmədən ilk uşaq olanaqədərki dövrdür. Uşaqların doğulması və tərbiyə edilməsi ilə bağlı olan dövr 2-ci mərhələ, uşaqların valideynlərin himayəsindən çıxması ilə bağlı mərhələ isə 3-cü dövr kimi səciyyələnir. Nuklear ailələrdə uşaqların say tərkibinə görə kolxozçu və fəhlə (sovxozda işləyənlər) ailələri üstünlük təşkil edirlər.

Kənd ailələrində təsərrüfat müstəqilliyi üçün şəraitin yaranması ailə üzvlərinin müstəqil yaşamasını təmin edir. Hazırda kəndlərdə hər bir ailənin şəxsi həyatyanı təsərrüfatında, yaxud əlavə torpaq sahəsində gənc ailələrin ev tikdirmək imkanı vardır. Bu tip ailələrdə ailə başçısı əsasən ata – yəni evin kişisi olur. Ailədə büdcənin bir hissəsi yığılır, digər hissəsi isə ailənin ərzaq ehtiyaclarına, gündəlik yeməklərinə xərclənir.

Nuklear azərbaycanlı ailələrdə etnik spesifika ailədəki qarşılıqlı münasibətlərdə, əxlaq normalarında, uşaqların valideynlərə, qocalara hörməti baxımından əks olunur.

Azərbaycanda 1989-cu ildə yaşayan 7021,2 min nəfər əhalinin 5805,0 nəfəri (82,7%-i) azərbaycanlılar, 171,4 min nəfəri (2,4%-i) ləzgilər, 392,3-nini (5,6%-i) ruslar, 390,5 min nəfəri (5,6%- i) ermənilər, 21,2 mini (1,0%-i) talışlar, 44,1 mini (0,6%-i) avarlar, 17,7 mini (0,5%-i) türklər, 28,6 mini (0,4%-i) tatarlar, 32,3 mini (0,5%-i) ukraynalılar, 13,3 mini (0,2%-i) saxurlar, 14,2 mini (0,2%-i) gürcülər, 12,2 mini (0,2%-i) kürdlər, 30,8 mini (0,4 %-i) yəhudilər, 6,1 mini (0,1 %-i) udinlər, 41,5 mini (0,6%-i) digər millətlər idi.

1999-cu ildə isə 7953,4 min nəfər əhalinin 7205,5 min nəfəri (90,6 %-i) azərbaycanlılar, 178,0 mini (2,2%-i) ləzgilər, 141,7 min nəfəri (1,8%-i) ruslar, 120,7 min nəfəri (1,5%-i) ermənilər, 76,8 min nəfəri (1,0%-i) talışlar, 50,9 min nəfəri (0,6%-i) avarlar, 43,4 min nəfəri (0,5%-i) türklər 30,0 min nəfəri (0,4%-i) tatarlar, 29,0 min nəfəri (0,4%-i) ukraynalılar, 15,9 min nəfəri (0,2%-i) saxurlar, 14,9 min

nəfəri (0,2%-i) gürcülər, 13,1 min nəfəri (0,1%-i) kürdlər. 8,9 min nəfəri (0,1%-i) yəhudilər 4,1 min nəfəri (0,05%-i) udinlər, 20,5 min nəfəri (0,25%-i) isə digər millətlər idilər (1,81).

Azərbaycan əhalisi arasında 9-49 yaş səviyyəsində olan əhali arasında əhalinin siyahıya alınmaları üzrə savadlılıq səviyyəsi nəzərdən keçirilərsə, 1897-ci ildə cəmi əhalinin 9,2%-i, 1926-cı ildə 28,2%-i, 1939-cu ildə 82,8%-i, 1959-cu ildə 97,3%-i, 1989-cu ildə 99,9%-i, 1999-cu-cu ildə isə 99,9%-i bu və ya digər təhsil səviyyəsinə malik idilər. Məlumdur ki, Azərbaycanda həm şəhər, həm də kənd əhalisi arasında savadlılıq dərəcəsi demək olar ki, eynidir (1,86).

15 və yuxarı yaşda olan əhali arasında qadınlar üstünlük təşkil edirlər. Ayrılıqda götürüldükdə isə kəndlərdə əhali savadlılıq səviyyəsinə görə fərqlənirlər. Belə ki, 1999-cu ildə savadlı kişilər 98,9%, qadınlar 95,9% idilər.

2000-ci ildə əhalinin sayı 8081,0 min nəfər idi. Onlardan əmək qabiliyyətli yaşda olan 4768,3 min nəfərin 2366,4 min nəfəri kişilər, 2401,9 min nəfəri qadınlardır.

Əmək qabiliyyətli yaşdan cavan olanlar 2585,3 min nəfərdir. Onların 1337,1 min nəfəri kişilər, 1248,2 min nəfəri qadınlardır. Əmək qabiliyyətli yaşdan yuxarı yaşı olanlar 727,4 min nəfərdir. Onların isə 251,0 min nəfəri kişilər, 476,4 min nəfəri isə qadınlardır.

2000-ci ildə əhalinin təbii artımı 70293 nəfər olmuşdur.

Əhalinin iqtisadiyyatla məşğul olanlarının orta illik sayı 3704,5 nəfər idi. Onlardan qeyri dövlət müəssisələrində çalışanlar 2426,3 nəfərdir.

Əhalinin 2000-ci ildə pul gəlirləri 17556816,6 min manat idi. Adambaşına düşən pul gəliri 2214840,2 manat, iqtisadiyyatla məşğul olanların orta aylıq əmək haqqı 221606,0 manat idi (26,37).

Azərbaycanda 1990-cı ildə yaşayış evlərinin istifadəyə verilmiş ümumi sahəsi 24848,0 min kvadrat metr, 2000-ci ildə isə 487,0 min kvadrat metr olmuşdur.

2000-ci ildə isə sənaye məhsulları 16681035 min manat, kənd təsərrüfatı məhsulları 5303389,9 min manat təşkil edirdi (26,38).

Qeyd etmək lazımdır ki, 2000-ci ildə Azərbaycanda yaşayan əhalinin 51%-i, yəni 4 milyon 107 min nəfəri şəhərlərdə, 49%-i 3 milyon 974 nəfəri isə kəndlərdə yaşayırdı.

Əhalinin 3 milyon 954 min nəfəri (49%-i) kişilər, 4 milyon 127 min nəfəri (51%-i) qadınlardır. 15 yaşadək (0-14 yaşlı) bütün əhalinin xüsusi çəkisi (kişilər arasında 32%, qadınlar arasında isə 28%) 30 faiz, 65 yaşdan yuxarı əhalinin xüsusi çəkisi isə (kişilər arasında 5%, qadınlar arasında 7%) 6% təşkil etmişdir.

Azərbaycanda 2000-ci ildə ölkədə əhalinin hər 1000 nəfərinə hesabı ilə artım 15 nəfər təşkil etmişdir. Hər il təxminən 125 min, hər gün isə 340 körpə dünyaya gəlir (26,45).

Azərbaycanda ölümün səviyyəsi uzun illər ərzində nisbətən və sabit olması ilə səciyyələnir. Lakin çoxsaylı insan tələfatına səbəb olmuş Ermənistanın hərbi təcavüzü nəticəsində 1992-1994-cü illərdə ölüm səviyyəsinin göstəricisi xeyli artmışdır. Sonrakı illərdə Azərbaycan ilə Ermənistan arasında atəşkəs rejimi tətbiq edildikdən sonra ölümün səviyyəsi azalmış və 2000-ci ildə onun səviyyəsi əhalinin hər 1000 nəfərinə hesabı ilə 6 nəfər təşkil etmişdir.

Ölümün səviyyəsi gözlənilən ömür uzunluğu göstəricisində də öz əksini tapır. 2000-ci ildə bu göstərici 72 yaş, o cümlədən kişilər üçün 69 yaş, qadınlar üçün isə 75 yaş təşkil etmişdir.

Hazırda bir qadına təxminən iki doğulmuş uşaq düşür. Əgər 10 il əvvəl üç və ya daha çox doğulmuş uşaqların xüsusi çəkisi 31% təşkil edirdisə, indi bu göstərici 25%-dir.

Doğumun səviyyəsinə nikah da əhəmiyyətli dərəcədə təsir göstərir. Respublikada orta hesabla təxminən 57 min nikah bağlanır və 8 min nikah pozulur. Azərbaycanda 1991-ci ildə 74378 (şəhər - 35852, kənd - 38526) nikah, 1997-ci ildə isə 46999 (şəhər - 23293, kənd - 23706) nikah qeyd olunmuşdur. Əhalinin 1999-cu il siyahıya alınmasının nəticələrinə görə, 16 və yuxarı yaşda təxminən 1 milyon 746 min və ya 43% qadın nikaha daxil olmüşdür.

Fertil (nəsilvermə) qabiliyyətinə malik yaşda olan qadınların sayı 2 milyon 311 min nəfərdir. Adətən 20-24 yaş səviyyəli qadınlar arasında doğum hadisəsi nisbətən çoxdur.

Azərbaycanda 1910-cu ildə doğulanlar 43932, ölənlər 33196, 1989-cu ildə doğulanlar 181631, ölənlər 44016, təbii artım 137615 nəfər olmuşdur.

Qeyd etmək lazımdır ki, 1990-cı ildə 86008 nəfər uşaq şəhərlərdə, 9698,1 nəfər kəndlərdə doğulmuşlar, 2001-ci ildə isə şəhərlərdə 49676 nəfər, kəndlərdə 60686 nəfər uşaq dünyaya göz açmışdır (1,184).

Azərbaycanda müstəqillik illərində, yəni 1991-ci ildə doğulanların sayı 190353 nəfər (89321 nəfər şəhər, 101032 nəfər kənd əhalisi) idi.

Həmin ildə ölənlər 44659 nəfər (şəhərlərdə 23192 nəfər, kəndlərdə 21467 min nəfər) idi. Beləliklə, təbii artım 145694 nəfər (şəhərlərdə 66129 nəfər, kəndlərdə 79565 nəfər) olmuşdur.

1997-ci ildə isə doğulanlar 132052 nəfər (şəhər – 57031, kənd – 75021 nəfər) idi. Ölənlər isə 46962 nəfər (şəhər – 23928 nəfər, kənd – 23034 nəfər) idi. Təbii artım isə 85090 (şəhər – 33103, kənd – 51987 nəfər) idi.

2001-ci ildə doğulanlar 110356, ölənlər 45284, təbii artım 65072 nəfər olmuşdur (1,94).

Azərbaycanda 80-cı illərə qədər çoxuşaqlılıq ənənəsi mövcud idi. Yalnız 80-cı illərdən başlayaraq iki uşaqlı ailələrə keçid başlamış və bu proses 90-cı illərdə də davam etmişdir (3,28).

2001-ci ildə Azərbaycanda doğulanlar arasında kişilər 59495 nəfər (şəhər – 26989 nəfər, kənd – 32506 nəfər), ölənlər 23725 nəfər (şəhər – 12655 nəfər, kənd – 11070 nəfər), qadınlar arasında doğulanlar 50861 nəfər (şəhərlərdə 22687 nəfər, kəndlərdə 28174 nəfər), ölənlər 21559 nəfər (şəhərlərdə 10687 nəfər, kəndlərdə 10832 nəfər), təbii artım isə 29302 nəfər (şəhərlərdə 11960 nəfər, kəndlərdə 17342 nəfər) idi (1,99).

Azərbaycanda doğulanlara nisbətən ölənlərin sayı 1989-cu ildən başlayaraq artmış, 1992-ci ildə yüksək həddə çatmışdır. Müharibə, yaranan problemlərə psixoloji cəhətdən hazır olmamaq ölənlərin çoxalması ilə nəticələnmişdir (3,32).

Əhalinin indiki yaş quruluşunda təbii hərəkat, xüsusən doğumun keçmiş və gələcək meyli ifadə olunur. Əhalinin yaş quruluşunda olan vəziyyəti müqayisə edərkən yaş qrupları içərisində 10 yaşa qədər olanların bütün əhaliyə olan nisbətinin 1959-cu ildə 45,1%,1970-ci ildə 53,2%, 1979-cu ildə 48,9%, 1989-cu ildə 42,7%,1997-ci ildə isə 42,0% olduğunu görmək olar (3,30).

1999-cu ildə Azərbaycan Respublikasına gələnlər 4806 nəfər idi. Onların 2947-si kişilər, 1859-u qadınlar idi. Həmin ildə Azərbaycan Respublikasından gedənlər isə 9142 nəfər idi. Onların da 3962-si kişilər və 5180-ı qadınlar idi.

1999-cu ildə Azərbaycana gələn əhalinin 3600-ü əmək qabiliyyətli, 875 nəfəri əmək qabiliyyətli yaşdan aşağı, 331 nəfəri isə əmək qabiliyyətli yaşdan yuxarı yaşda olanlar idi.

Azərbaycandan gedənlər arasında 6186 nəfər əmək qabiliyyətli, 1797 nəfər əmək qabiliyyətli yaşdan aşağı, 1159-u isə əmək qabiliyyətli yaşdan yuxarı yaşda olanlar idi (1,303).

Azərbaycana gələnlərin 2809-u (1700 kişi,1109 qadın) şəhərlərdə 1997-si, (1247 kişi, 750 qadın) kəndlərdə yaşayırdılar.

Azərbaycandan gedənlərin 6285 nəfəri (2685 kişi, 3600 qadın) şəhərlərdə, 2857-si (1277 kişi, 1580 qadın) kəndlərdə yaşayanlar idi (1,304-305).

Azərbaycanda 2000-ci il ərzində 10,0 min nəfər digər ölkələrə getmiş, 4,4 min nəfər isə Respublikaya gəlmişdir. Deməli, əhalinin artmasına mane olan amillərdən biri də əhalinin miqrasiyasıdır. 1990-cı ildə isə gedənlərin sayı 137900 nəfər, gələnlər 84274 nəfər idi (6,68).

2000-ci ildə ailə başçıları arasında 26,3% qadın ailə başçısı olmuşdur.

1999-cu ildə Azərbaycanda 1687582 ev təsərrüfatı var idi. Həmin təsərrüfatlarda yaşayan əhalinin sayı 7953438 nəfər idi. Bir nəfər üzvü olan ev təsərrüfatlarının sayı – 130589; 2- 138709; 3- 213644; 4-350136; 5- 348327; 6-230931; 7-111113; 8-65567; 9-38150; 10 və daha çox üzvü olan ev təsərrüfatlarının sayı 62416; onlarda olan üzvlərin sayı içsə 741057-dir.

Ev təsərrüfatlarının 46%-i kəndlərdə; 54%-i isə şəhərlərdə yerləşir. Ev təsərrüfatı üzvlərinin sayı isə kəndlərdə 49%; şəhərlərdə isə 51% təşkil edirdi (6,8).

Demək olar ki, 4 və 5 nəfər üzvü olan ailələr çoxdur. Şəhərlərdə 4 nəfər üzvü olan ailələr, kəndlərdə isə 5 nəfər üzvü olan ailələr üstünlük təşkil edir.

Ev təsərrüfatındakı statusuna görə əhalinin sayı 7953438 nəfərdir. Onlardan tək yaşayanlar 1671978 nəfərdir. Ər və arvad birlikdə yaşayanlar 1156984 nəfər; oğul, qız ilə birlikdə yaşayanlar 3540612; ata-anası ilə birlikdə yaşayanlar 58945; qardaşı-bacısı ilə birlikdə yaşayanlar 98977; gəlini, kürəkəni ilə birlikdə yaşayanlar 380093; qaynata-qaynanası ilə birlikdə yaşayanlar 8227; baba-nənəsi ilə birlikdə yaşayanlar 1674; nənəsi ilə birlikdə yaşayanlar 816391 nəfər, digər qohumları ilə birlikdə yaşayan ailələr 194535; qohum olmayanlar birlikdə yaşayanlar isə 25022 ailədir.

Ailədə ər-arvad və uşaqlar birlikdə yaşayan, ər-arvad birlikdə yaşayan və nəvəsi ilə birlikdə yaşayan ailələr nisbətən çoxdur.

Kişilərin tək yaşaması halı nisbətən çoxdur. Bu hal həm şəhərlərdə, həm də kəndlərdə çoxluq təşkil edir.

Qeyd etmək lazımdır ki, kişilər arasında tək yaşayanlar 1242696 nəfər, qadınlar arasında 429282 nəfərdir. Şəhər əhalisi arasında tək yaşayan kişilər 639702 nəfər, qadınlar isə 264303 nəfərdirlər. Kənd əhalisi arasında tək yaşayan kişilər 602994 nəfər, qadınlar 164979 nəfərdirlər (6,20). 18 və kiçik yaşlı uşağı olan ev təsərrüfatlarının sayı 127895-dir. Ev təsərrüfatı üzvlərinin sayı isə 690100 nəfərdir. Onlar şəhərlərdə 658761, kəndlərdə isə 620191nəfərdir.

Bir uşaqlı ev təsərrüfatlarının sayı 288227, üzvlərinin sayı 1136455; 2 uşaqlı 450679, üzvlərinin sayı 2161194; 3 uşaqlı 326153, üzvlərinin sayı 1875019; 4-uşaqlı 137605, üzvlərinin sayı 967979; 5 və çox uşaqlı – 76288, üzvlərinin sayı 760353-dür. Əlbəttə, 4 və 5 nəfər üzvü olan ailələr nisbətən çoxdur.

Şəhər əhalisi arasında ev təsərrüfatı üzvlərinin sayı 3430174, 18 yaş və kiçik yaşlı üzvləri olan ev təsərrüfatlarının sayı 658761 idi. Bir uşaqlı ev təsərrüfatlarının sayı 172106, üzvlərinin sayı 649903, 2-248608, üzvlərinin sayı 1167618; 3-148919, üzvlərinin sayı 852944; 4-56751, üzvlərinin sayı 406934; 5-32377; üzvlərinin sayı isə 352772-dir (6,157).

Kənd əhalisi arasında 18 yaşlı və kiçik yaşlı uşağı olan ev təsərrüfatlarının sayı 116121, üzvlərinin sayı 486552, 2-202071, üzvlərinin sayı 993576; 3-17723, üzvlərinin sayı 1022075; 4-80854; üzvlərinin sayı 561045; 5 və çox uşaqlı 43911, üzvlərinin sayı 407581nəfərdir.

Göründüyü kimi şəhərlərdə iki və üç uşaqlı ailələr, kəndlərdə isə üç uşaqlı ailələr, nisbətən də 2 uşaqlı ailələr üstünlük təşkil edir.

16 və yuxarı yaşlı bir nəfərdən ibarət ev təsərrüfat larının üzvlərinin sayı 1999-cu ildə şəhərlərdə 87165 nəfər idi. Onlardan 43706-sı kişilərdən ibarət olanlar, 4357-si isə qadınlardan ibarət olanlar idi.

Kənd əhalisi isə 38473 idi. Onlardan kişilər 13776, qadınlar 24697 idi.

Şəhərlərdə tək təsərrüfatların sayı, kəndlərdəkinə nisbətən çoxdur. Həmçinin şəhərlərdə kişilərdən ibarət, kəndlərdə isə qadınlardan ibarət ev təsərrüfatları üstünlük təşkil edir (6,210).

Əmək qabiliyyətli yaşda olan ev təsərrüfatlarında şəhər əhalisi 60878, kənd əhalisi isə 16626 nəfərdir.

Əmək qabiliyyətli yaşdan böyük olan şəhər əhalisi isə 21845 nəfərdir. Əmək qabiliyyətli yaşda və yuxarı yaşda olanlar içərisində şəhər əhalisi üstünlük təşkil edir.

Azərbaycanda iqtisadi aktiv üzvü olan ev təsərrüfatlarının sayı 1517981-dir. Onların bir nəfərdən ibarət üzvü olanlar 63164, 2-99764; 3-191797, 4-333410; 5-333810; 6-223589; 7-108642; 8-64393; 9-37582, 10 nəfər və çox üzvdən ibarət olanlar 61830-dur.

Azərbaycanda iqtisadi aktiv üzvü olan ev təsərrüfatları içərisində 4 və 5 nəfər üzvü olanlar üstünlük təşkil edir (6,301).

Məşğul uzvü olan ev təsərrüfatlarının sayı 1386733-dür. Onlardan bir nəfər üzvü olanlar – 52971, 2-85830, 3-169709, 4-303635, 5-307659, 6-207583, 7-102628, 8-61152, 9-35907, 10 və çox nəfərdən ibarət olanlar 59659-dur.

Azərbaycanda 2000-ci ildə doğulanlar 116994 nəfər, ölənlər 46701 nəfər, təbii artım 70193 nəfər idi.

Azərbaycanda 1990-cı ildə qeydə alınmamış nikahdan doğulanların sayı 4800 nəfər idi (6,391). Onların 3057-si şəhər, 1743-ü kənd əhalisi idi.

2000-ci ildə isə qeydə alınmamış nikahların sayı 73119, boşananların sayı 14040, 2000-ci ildə isə nikahların sayı 39611, boşanmaların sayı 5478 olmuşdur (6,62).

1999-cu il əhalinin siyahıyaalınmasına görə Azərbaycanda 18 yaşadək uşaqları olan ailələrin sayı 1279,0 min idi. Onların 658,8 mini şəhər, 620,2 mini isə kənd yerlərində idi. Bir uşaqlı ailələr 288,2 min, o cümlədən şəhərlərdə 172,1 min, kəndlərdə 116,1 min; iki uşaqlı 450,7 min, o cümlədən şəhərlərdə 248,6 min, kənd lərdə 202,1 min, dörd və daha çox uşaqlı 213,9 min, o cümlədən şəhərlərdə 89,1 min, kəndlərdə 124,8 min idilər (6,63).

2000-ci ildə ölkədə işləyən və işsiz əhalini əhatə edən iqtisadi fəal əhalinin sayı 1995-ci ilə nisbətən 2,9 faiz artmış və 3748,2 min nəfər olmuşdur. 2000-ci ildə ölkə iqtisadiyyatının bütün fəaliyyət sahələrində məşğul olanların sayı 3704,5 min nəfər, o cümlədən dövlət sektorunda işləyənlər 1278,2 min nəfər, qeyri-dövlət sahələrində 2426,3 min nəfər olmuşdur.

Bazar iqtisadiyyatına keçid prosesinin və özəlləşdirmənin labüd nəticəsi olaraq dövlət müəssisələrində işləyənlərin sayının ümumi məşğulluqda xüsusi çəkisi 1990-cı ildəki 71%-dən azalaraq 2000-ci ildə 35%-ə enmişdir.

2000-ci ildə ölkə iqtisadiyyatında çalışan işçilərin orta aylıq nominal əmək haqqı 221,6 min manat təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 20,2% artmışdır (6,68).

Əmək ehtiyatları 1990-cı ildə 4015,5 min nəfər, 2000-ci ildə 4694,4 min nəfər idi. Əmək qabiliyyətli yaşda olan əhalinin sayı 1990-cı ildə 3859,9 min nəfər, 2000-ci ildə 4359,4 min nəfər, iqtisadiyyatda məşğul olan əmək qabiliyyətli yaşdan yuxarı şəxslər 1990-cı ildə 143,0 min nəfər, 2000-ci ildə 143,0 nəfər, iqtisadiyyatda məşğul olan yeniyetmələr 1990-cı ildə 11,6 min nəfər, 2000-ci ildə 12,0 min nəfər idilər.

2000-ci ildə 31990 nəfər işlə təmin olunmaq üçün ərizə vermiş, onlardan 19095 nəfəri işlə təmin olunmuşlar (6,70).

Bazar iqtisadiyyatı strukturunun fəaliyyətinin nəticəsidir ki, Azərbaycanda 1990-cı ildə fəaliyyət göstərən

kiçik müəssisə və kooperativlərin sayı 4611, orada işləyənlər isə 92186 nəfər idilər. Orta hesabla hər müəssisədə orta aylıq əmək haqqı 22,4 min manat idi. 2000-ci ildə kiçik müəssisə və kooperativlərin sayı 24254, işləyənlərin sayı isə 99778 nəfər idi. Hər müəssisədə orta aylıq əmək haqqı 169,4 min manat idi.

Azərbaycanda 1995-ci ildə fəaliyyət göstərən xarici və müştərək müəssisələrin sayı 293, orada işləyənlər 59406 nəfər, orta aylıq əmək haqqı 156,6 min manat, 2000-ci ildə isə xarici müştərək müəssisələrin sayı 293, orada işləyənlər 7027 nəfər idilər. Orta aylıq əmək haqqı 1041,8 min manat idi.

1995-ci ildə birjaların sayı 4, orada işləyənlər isə 64 nəfər idilər. Orta aylıq əmək haqqı isə 693,5 min manat idi.

1995-ci ildə fəaliyyət göstərən kəndli (fermer) təsərrüfatları 3186, orada işləyənlər isə 51925 nəfər idilər.

1995-ci ildə ümumiyyətlə kəndli (fermer) təsərrüfatlarının sayı 815, ailə (kollektiv) üzvlərinin sayı 7290 nəfər, ümumi torpaq sahəsi 21776 hektar, kənd təsərrüfatına yararlı torpaq sahəsi 17046 hektar, onlardan əkin yeri 9106 hektar idi.

2000-ci ildə fermer təsərrüfatlarının sayı 34126, ailə (kollektiv) üzvlərinin sayı 116021 nəfər, ümumi torpaq sahələri 115412 hektar, kənd təsərrüfatına yararlı torpaq sahəsi 111815 hektar, onlardan əkin yeri 91505 hektar idi (6,87).

Azərbaycanda 1999-cu il əhalinin siyahıyaalınması məlumatına görə ev təsərrüfatlarının sayı 1687582, o cümlədən şəhərlərdə 911446, kəndlərdə 776136, ev təsərrüfatı üzvlərinin sayı 7953438, o cümlədən şəhər əhalisi 4053584 nəfər, kənd əhalisi 3899854 nəfər idi. Qeyd etmək lazımdır ki, bir nəfər üzvü olan müəssisə – 130589; 2-138709, 3-213644; 4-350136; 5-346327; 6-

230931; 7-111113; 8-65567; 9-38150; 10 və daha çox üzvü olan müəssisələrin sayı isə 62416 –dır (6,107).

Ev təsərrüfatlarının adambaşına aylıq pul gəlirləri 1990-cı ildə 10,0 manat, 1995-ci ildə 59860,0 manat, 2000-ci ildə 173103,0 manat idi (6,108).

Qeyd etmək lazımdır ki, 1999-cu ildə əhalinin pul gəlirləri əsasən əmək haqqı, sahibkarlıq fəaliyyətindən gələn gəlirlər, sosial trajsfertlər, mülkiyyətdən gələn gəlirlər, əhalinin xarici valyuta dəyişdirilməsindən alınan gəlirlər və digər gəlirləri hesabına adambaşına düşən pul gəlirləri 2051986,6 manat, 2000-ci ildə isə 2214840,2 manat olmuşdur.

1999-cu ildə Azərbaycanda ümumi mənzil sahəsi 88,7 min kvadrat metr, 2000-ci ildə isə 97,1 min kv. metr olmuşdur (6,110).

1990-cı ildə 8,0 min ədəd, 2000-ci ildə isə 13,2 min ədəd mənzil özəlləşdirilmişdir (6,116).

Azərbaycanda 1999-cu il siyahıyaalınmasının məlumatlarına əsasən 15 və yuxarı yaşda əhalinin hər 1000 nəfərinə 758 nəfər ali və orta təhsilli şəxs düşür. Belə ki, bu yaş qruplu əhalinin 98,8%-ni savadlılar təşkil edir. Onlar arasında kişilər 99,5% qadınlar 98,2% dir (6,131).

2000-ci ildə Azərbaycanda 1790 məktəbəqədər müəssisə fəaliyyət göstərmişdir və burada 111,0 min uşaq və ya müvafiq yaşda olan uşaqların 16,1 faizi tərbiyə almışdır.

Bütün məktəbəqədər müəssisələrin əsas hissəsini təşkil edən ümumi tipli müəssisələrlə yanaşı (99%), ölkədə xüsusi təyinatlı 5 müəssisə və 5 sanatoriya müəssisəsi fəaliyyət göstərmişdir. Bundan başqa 6 məktəbəqədər müəssisədə 404 uşağın tərbiyə aldığı və müalicə kursu keçdiyi sanatoriya qrupları yaradılmışdır (6,131).

Hazırda ölkədə fəaliyyət göstərən 4561 ümumtəhsil məktəbində 1 milyon 690 min şagird, o cümlədən 1 milyon 654 min nəfər gündüz və 36 min axşam növbəli

məktəblərində təhsil alır və onlara 172 min müəllim dərs deyir.

Xüsusi istedada malik olan uşaqlar üçün ölkədə müxtəlif fənnlər üzrə təmayülləşdirilmiş 225 məktəb (onlardan 7 gimnaziya və 33 litsey) fəaliyyət göstərir və bu məktəblərdə 84 min uşaq təhsil alır (6,131).

Qaçqın və məcburi köçkün şagirdlərin təhsil almaları üçün 702 məktəb vardır, onların bir hissəsi çadır şəhərciklərində və evlərdə, bəziləri isə fəaliyyət göstərən məktəb binalarında yerləşdirilmişdir. Bu məktəblərdə 88 min qaçqın şagird təhsil alır. Bir neçə ildir ki, onsuz da normadan artıq yüklənmiş məktəblər qaçqınlarla əlaqədar daha gərgin iş rejimində işləyir.

580 min şagird və ya şagirdlərin 35 faizi ikinci və üçüncü növbədə oxuyurlar.

Ölkə orta peşə təhsil növünə yiyələnmək üçün gənclərə kifayət qədər imkan yaradan çoxşaxəli təhsil müəssisələri şəbəkəsinə malikdir.

2000-2001-ci dərs ilinin əvvəlində 41 min tələbənin orta peşə təhsili aldığı 68 dövlət orta ixtisas məktəbi olmuşdur.

2000-2001-ci dərs ilinin əvvəlində Azərbaycan Respublikasında 91 min tələbənin təhsil aldığı 25 dövlət ali məktəbi fəaliyyət göstərirdi. Bundan başqa Ali Hərbi Ümumqoşun Komandirlər məktəbi, Bakı Ali Polis Akademiyası, Milli Təhlükəsizlik Akademiyası ali təhsilli mütəxəssislər hazırlayır.

1995-ci ildən başlayaraq ölkənin Ali məktəblərinə tələbə qəbulunun artması ali peşə təhsilinə marağın artmasını sübut edir (6,132).

2000-ci ildə dövlət ali məktəblərinə 20,5 min və ya 1995-ci ildəkindən 5,1 min nəfər çox (33 faiz) tələbə qəbul olunmuşdur.

Orta peşə təhsili sahəsində qeyri-dövlət təhsil müəssisələrinin sayı çox deyil və bu səviyyədə

mütəxəssislərin hazırlanması həcminə böyük təsir göstərmir. 2000-2001-ci dərs ilinin əvvəlində ölkədə 1439 tələbənin təhsil aldığı cəmi üç qeyri-dövlət orta ixtisas məktəbi mövcud olmuşdur. Burada tələbələrin 616 nəfəri maarif, 742 nəfəri səhiyyə, 81 nəfəri filologiya ixtisası üzrə təhsil almışdır.

Bununla belə ölkədə qeyri-dövlət ali məktəblərinin geniş şəbəkəsi fəaliyyət göstərir. 2000-2001-ci dərs ilinin əvvəlində 28,7 min tələbənin, 1995-1996-cı dərs ilində 12,5 min tələbənin təhsil aldığı dövlət lisenziyalı 18 qeyri-dövlət ali məktəblərində mütəxəssislərin hazırlanması əsasən əmək bazarlarında daha çox tələb olunan ixtisaslara yönəldilmişdir. Həmin ali təhsil ocaqlarında tələbələrin 26 faizi iqtisad, 20 faizi hüquqşünaslıq ixtisasları üzrə təhsil almışlar (6,132).

Müstəqillik illərində ali təhsil pilləsi də həm məzmun, həm struktur, həm də kəmiyyət baxımından inkişaf yolu keçib. Azərbaycan ali təhsili tarixində ilk dəfə olaraq 1993/94-cü dərs ilindən etibarən iki pilləli ali təhsilə – 4 illik bakalavriat və 2 illik magistraturaya keçilmişdir. Dövlət ali məktəblərinin sayı 17-dən 2001-ci ildə 30-a çatmışdır. Ali məktəblərimiz həm də sanballı elm mərkəzlərinə çevrilmişdir. Son 10 ildə rəsmi dövlət qeydiyyatından keçmiş 18 qeyri-dövlət ali təhsil müəssisəsi də fəaliyyət göstərir.

Müstəqillik illərində təhsil sahəsində beynəlxalq əlaqələr genişlənmişdir. Bu gün dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a yaxın ixtisas üzrə 3000-dən artıq azərbaycanlı gənc təhsil alır, təqribən 50 xarici ölkədən isə Azərbaycanın müxtəlif ali məktəblərində 2000-dən çox tələbə, magistr, aspirant təhsil almaqdadır. Bu gün xarici əlaqələr sahəsində əsas strateji məqsəd hər bir ali təhsil müəssisəsinin beynəlxalq fəaliyyət subyektinə çevrilməsinə imkan yaratmaqdan, Avropa İqtisadi Birliyinin, YUNESKO-nun və digər beynəlxalq təşkilatların müxtəlif

təhsil proqramları və layihələrində iştirak etməkdən ibarətdir.

XXI əsrin əvvəlində Azərbaycan Respublikası dünyanın 30-dan çox ölkəsi ilə ali təhsil sahəsində geniş miqyaslı əməkdaşlıq edir (7, 244-245).

Azərbaycanda elmi müəssisələrin geniş şəbəkəsi yaradılmışdır.

2002-ci ilin əvvəlində ölkədə 137 elmi-tədqiqat institutu, ali məktəblər və digər təşkilatlar fəaliyyət göstərmişdir ki, onlarda da 26,4 min nəfər elmi-tədqiqat işlərini və işləmələri yerinə yetirən işçi çalışır.

Respublikanın mədəni həyatı da inkişaf etməkdə davam edir. Bu proses də azərbaycanlı ailələrin mədəni səviyyəsinə təsir edir. Bu gün 3354 klub müəssisəsi, 4374 kütləvi kitabxana, 607 kino qurğusu, 27 peşəkar teatr, 4 filarmoniya, 7 musiqi kollektivi, 155 muzey əhaliyə xidmət göstərir. Son 10 il ərzində Naxçıvan Muxtar Respublikasında, Bakı və Gəncə şəhərlərində, eləcə də Qazax, Füzuli rayonlarında yeni teatrlar açılmışdır. Tamaşaçıları teatra cəlb etmək üçün repertuar hər gün təzələnməklə istedadlı gənclər qəbul edilir.

1990-cı ildə respublikada 731 xəstəxana, 1826 ambulator-poliklinika, 2000-ci ildə isə 735 xəstəxana və 1614 ambulator poliklinika müəssisəsi fəaliyyət göstərmişdir.

2000-ci ildə əhalinin hər 10 min nəfərinə həkimlərin sayı 1990-cı ilə nisbətən 38,7-dən 36,5-ə qədər azalmışdır.

2000-ci ildə Azərbaycanda əhalinin xəstələnməsinin səviyyəsində ciddi dəyişikliklər baş verməmiş, 2,7 min xəstələnmə halı qeydə alınmışdır ki, bu da 1990-cı ildə olduğundan 18,5% azdır (6,181).

XX əsrin 90-cı illərində Azərbaycanın kənd təsərrüfatı ölkənin müstəqillik qazandıqdan sonrakı dövrdə yeni sosial-iqtisadi şəraitdə fəaliyyət göstərməsi ilə xarakterizə edilir. Belə ki, iqtisadiyyatın bazar münasibətləri əsasında

qurulması kənddə aqrar islahatların həyata keçirilməsi, ələlxüsus sovxoz və kolxozların islahatı, onlara məxsus torpaq, mal-qara və əmlakın özəlləşdirilməsi, kənd təsərrüfatı istehsalı sahəsində mərkəzi planlaşdırma sistemi və məhsul alışı üzrə dövlət sifarişlərinin ləğv edilməsi, məhsulun alış qiymətlərinin sərbəstləşdirilməsi və s. bu kimi tədbirlər kənd təsərrüfatının sosial və sahə strukturuna ciddi təsir göstərmişdir. Keçmiş kolxoz və sovxozların yerinə yeni təsərrüfatçılıq formaları yaranmış, məhsul istehsalının həcminin artırılmasında əhali və fermer təsərrüfatlarının rolu xeyli artmışdır.

Məlumdur ki, kənd əhalisinin rifahı, kəndin sosial-iqtisadi inkişafı aqrar islahatların gedişindən asılıdır. Ölkədə torpaq islahatının həyata keçirilməsi, torpağın xüsusi mülkiyyətə verilməsi, kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi digər sahələrlə müqayisədə kənd təsərrüfatında islahatların daha sürətlə aparılmasına imkan yaratmışdır. 1995-ci ildən başlayaraq 1300-dən çox kolxoz və sovxoz ləğv olunmuş və onların bazasında 35 minə yaxın kəndli (fermer) təsərrüfatı yaradılmışdır. Demək olar ki, aqrar islahatların birinci mərhələsi başa çatmışdır. Bunun nəticəsində kənd təsərrüfatı istehsalında 1998-ci ildə 4 faiz artım əldə edilmişdirsə, 1999-cu ildə artım 7,1 faiz olmuşdur. Xüsusilə. 2000-ci il kənd təsərrüfatı üçün çox uğurlu olmuşdur (5,67).

Bu gün ölkədə sahibkarların hüquqlarının qorunması mühüm əhəmiyyət kəsb edir. Bununla əlaqədar olaraq sahibkarların hüquqlarını müdafiə edən, onların fəaliyyətinə yersiz müdaxilənin və əsassız yoxlamaların qarşısını alan iki fərman (1996-cı il 17 iyun tarixli və 1999-cu il 7 yanvar tarixli) qəbul edilmişdir (5,72).

2000-ci ildə ölkə üzrə rekord miqdarda – 1540,2 min ton taxıl, 261 min ton bostan məhsulları, 469 min ton kartof istehsal edilmiş və 1991-ci illə müqayisədə onların istehsal

həcmi uyğun olaraq 14,4 faiz, 4,2 və 2,6 dəfə artmışdır (6,442).

Müqayisə edilən illər üzrə taxılın hektardan orta məhsuldarlığı 15 faiz, bostan bitkilərinin məhsuldarlığı 40 faiz, meyvə və giləmeyvənin məhsuldarlığı 41 faiz artmışdır. Tərəvəz istehsalı tədricən artaraq 2000-ci ildə 780,8 min tona çatmışdır. Meyvə və giləmeyvə istehsalı 1991-ci ilə nisbətən 2000-ci ildən başlayaraq çox istehsal edilmişdir.

Bununla belə pambıq, üzüm və yaşıl çay yarpaqlarının istehsal həcmi kəskin azalmışdır. Tütün istehsalı isə 2000-ci ildə 1990-cı ilə nisbətən 2 dəfə artmışdır.

Heyvandarlıq sahəsi son illər dinamiki şəkildə inkişaf etmişdir. Buna təsir edən amillərdən biri də ictimai təsərrüfatlara məxsus mal-qaranın özəlləşdirilərək əhaliyə paylanılması olmuşdur. Ölkə üzrə ət və yumurta istehsalı 1996-cı ildən, süd və yun istehsalı 1995-ci ildən başlayaraq ilbəil artmışdır.

Lakin barama istehsalı alıcılarının olmaması və satış qiymətlərinin əlverişsiz olması səbəbilə 1991-ci ildəki 5,9 min tondan, 2000-ci ildə 0,1 min tona qədər azalmışdır.

Mal-qaranın sayı 1991-1993-cü illərə nisbətən 1994-2000-ci illərdə dinamiki olaraq artmışdır.

Bunların əksinə olaraq donuzların və quşların sayı azalmışdır ki, bu da əsasən iri donuzçuluq komplekslərinin və quşçuluq fabriklərinin işləməməsi və yaxud onların çox zəif işləməsi ilə bağlıdır (7).

Təsərrüfat sahəsindəki bu dəyişikliklər, həmçinin heyvandarlıq quşçuluq və digər sahələrdəki azalmalar iqtisadiyyata təsir edir. Bu da öz növbəsində ailələrin maddi gəlirinə, yaşayış tərzinə, başqa sözlə ifadə etsək sosial-iqtisadi yaşayışlarına təsir göstərir.

1995-1996-cı illərdə «Aqrar islahatların əsasları», «Sovxoz və kolxozların islahatı». «Torpaq islahatı», «Torpaq bazarı» haqqında qanunların, digər vacib normativ hüquqi aktların qəbulu aqrar-sənaye

kompleksində köklü dəyişikliklər aparmaq üçün imkanlar açdı. Belə ki. «Torpaq islahatı haqqında» qanunda Müstəqil Dövlətlər Birliyi məkanında ilk dəfə olaraq torpağın xüsusi mülkiyyətə verilməsi, onun alqı-satqı obyekti olması kimi amillər öz əksini tapmışdır (7,141).

Son illərdə dövlət büdcəsi gəlirlərinin atrması sosial problemlərin həlli üçün daha çox vəsait ayrılmasına imkan vermişdir. Məsələn, əgər 1995-ci ildə dövlət büdcəsindən sosial yönümlü xərclərə 930 milyard manat və ya büdcə xərclərinin 43 faizi məbləğində vəsait istifadə edilmişdisə, 2000-ci ildə bu məqsədlər üçün artıq 2,2 dəfə çox, yəni 2 trilyon manat (büdcə xərclərinin 53 faizi) xərclənmişdir. 2001-ci ilin dövlət büdcəsində sosial yönümlü xərclərin xüsusi çəkisi 61 faizə çatdırılmaqla, 2000-ci illə müqayisədə 40 faiz artılırması nəzərdə tutulmuşdur (7,151).

2000-ci ildə iqtisadiyyatın və sosial sahələrin inkişafına bütün maliyyə mənbələrindən 4,2 trilyon manat həcmində investisiya yönəldilmiş, 2,0 trilyon manatlıq tikinti-quraşdırma işləri görülmüşdür. Keçən illə müqayisədə istifadə olunmuş investisiyanın məbləği 2,3 faiz, tikinti-quraşdırma işlərinin həcmi 2,4 faiz artmışdır. Əsaslı vəsaitin 51,0 fazini və ya 2,1 trilyon manatını xarici investisiya təşkil etmiş, 3,4 trilyon manatı, yaxud 81,3 faizi istehsal təyinatlı obyektlərin inşasının davam etdirilməsinə sərf olunmuşdur (5, 68-69).

Son illərdə büdcədən maliyyələşdirilən təşkilatlarda işçilərin əmək haqları bir neçə dəfə artırılmış, böyük qrup ədəbiyyat, incəsənət və elm xadimlərinə, habelə gənc istedadlara fərdi təqaüdlər müəyyən edilmişdir. Məsələn, 1999-cu il avqustun 1-dən dövlət büdcəsindən maliyyələşdirilən bir sıra müəssisə və təşkilatlarda işləyən fəhlə və qulluqçuların əmək haqları 1,8 dəfə, 2000-ci il yanvarın 1-dən təhsil işçilərinin, aprelin 1-dən elm, mədəniyyət və sosial təminat sahələrində çalışan işçilərin əmək haqları 25 faiz artırılmışdır.

2000-ci il yanvarın 1-dən əmək haqqının vergi tutulmayan minimum həddi 60 min manatdan 100 min manata qaldırılmışdır ki, bu da ölkə vətəndaşlarının real gəlirlərinin artmasına xeyli imkan yaradır. Ölkədə vətəndaşların pensiya təminatının yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi nəticəsində orta aylıq pensiyanın məbləği 2 dəfədən çox artmışdır (5,73).

Aztəminatlı əhaliyə dövlət qayğısını əks etdirən göstəricilər içərisində ayrı-ayrı qrup vətəndaşlara müxtəlif güzəştlərin və imtiyazların verilməsi xüsusi qeyd edilməlidir. Məsələn, 20 mindən artıq şəhid ailəsinə, 6 mindən çox Çernobıl əlilinə, 27 min II Dünya Müharibəsi əlilinə, minlərlə həmin müharibə zamanı arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif olunmuş minlərlə insanlara, müharibə veteranlarına, yüz minlərlə məcburi köçkünlərə və digər kateqoriyadan olan vətəndaşlara bir sıra vergilərdən, istifadə olunan elektrik və istilik enerjisinin, suyun, qazın haqqının ödənilməsinə, mənzil-kommunal xidmətlərinin göstərilməsinə, telefon çəkilişinə və s. görə azadolmalar və güzəştlər tətbiq olunur.

Əhalinin və şəhid ailələrinin böyük bir qrupu dövlət vəsaiti hesabına mənzillərlə və minik maşınları ilə təmin olunmuş, minlərlə əlilə hər il pulsuz dərman preparatlarının verilməsi, sanatoriya-kurort müalicəsi göstərilməsi və birdəfəlik maliyyə yardımı edilməsi həyata keçirilir (7,151).

21 oktyabr 2005-ci ildə ünvanlı sosial yardım (ÜSY) sistemi haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Həmin ilin 16 noyabrında Qanunun tətbiq edilməsi ilə bağlı fərman imzalanıb, 2006-cı il aprelin 1-dən isə tətbiqinə başlanılıb. Məqsəd sosial yardıma ehtiyacı olan şəxslərə və ailələrə kömək göstərilməsinə xidmət etməkdir. ÜSY dövlət büdcəsi hesabına həyata keçirilir.

Bu sahədə neft gəlirinin əhəmiyyəti inkarolunmazdır. Belə ki, dünyanın 200-ə yaxın ölkəsində, o cümlədən

Azərbaycanda yoxsulluğun azaldılması üzrə tədbirlər həyata keçirilir.

Sosial mudafiə xərcləri uşaqlı ailələrə dövlət müavinətləri, sair müavinət və kompensasiyalardan ibarətdir (18, 34-35).

Son on ildə demokratik cəmiyyətin mühüm atributlarından biri olan qeyri-hökumət təşkilatlarının inkişafında, ictimai-siyasi həyatda rolunun güclənməsində mühüm irəliləyişlər baş vermişdir. Bu gün ölkədə dövlət qeydiyyatından keçmiş 1400-dən çox qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Bu qəbildən olan yeni qurumların sayı durmadan artır.

Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən 30-dan çox ictimai birlik vardır. Bu qeyri-hökumət təşkilatlarının bir hissəsinin dövlət qeydiyyatından keçməməsinə baxmayaraq, onların sərbəst fəaliyyətinə heç bir məhdudiyyət qoyulmur (7,154).

2000-ci il martın 6-da Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə «2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı» təsdiq olunmuşdur. Təsadüfi deyil ki, bu gün respublikamızda 650-yə yaxın müxtəlif kütləvi informasiya vasitəsi – qəzet, jurnal, informasiya agentliyi, teleradio şirkəti fəaliyyət göstərir. Onlardan 520-i (372 qəzet, 113 jurnal, 25 informasiya agentliyi, 10 teleradio şirkəti) Mətbuat və İnformasiya Nazirliyində və Ədliyyə Nazirliyində müvafiq qeydiyyatdan keçmişdir. Kütləvi informasiya vasitələrinin böyük əksəriyyəti müxtəlif ictimai və siyasi təşkilatlar, özəl qurumlar və fiziki şəxslər tərəfindən təsis olunmuşdur. Dövlətin təsis etdiyi kütləvi informasiya vasitələri bunların içərisində Mətbuat yayımı ilə isə artıq özəlləşdirilməyə çıxarılmış iki dövlət qurumu («Qasid» və «Azərmətbuatyayımı») və müxtəlif özəl firmalar («Çapar», «Dalğa», «Qaya», «Babək» və s.) məşğul olur (7,232-233).

1992-ci il avqustun 30-da qəbul olunmuş «Dini etiqad azadlığı haqqında» Qanun vətəndaşların dinə münasibətini sərbəst müəyyənləşdirmək, hər hansı dinə ibadət etmək, öz əqidəsini ifadə etmək və yaymaq hüququna malik olduğunu əks etdirir.

Hazırda Azərbaycanda islamı, rus pravoslav kilsəsini, gürcü pravoslav kilsəsini, xristian molokanları, adventist-protestantları, sinaqoqları, alman lüteran kilsəsini, Krişna beynəlxalq cəmiyyətini və s. təmsil edən qeydiyyata alınmış 500-dən çox dini qurum fəaliyyət göstərir. Eyni zamanda 1500-ə yaxın dini qurum dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməkdədir.

Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2001-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Konstitusiyasının vicdan azadlığı haqqındakı 48-ci maddəsinin həyata keçirilməsini təmin etmək məqsədi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. Komitənin əsas vəzifəsi vicdan azadlığının həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılmasından, dini etiqad azadlığı ilə bağlı olan qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsindən və dini qurumların dövlət qeydiyyatına alınmasından ibarətdir (7,234-235).

Göründüyü kimi, müstəqillik illərində azərbaycanlıların ailə-məişət həyatında yeni siyasi-sosial-iqtisadi və mənəvi münasibətlər formalaşır və getdikcə inkişaf edərək onların ailə-məişət həyatına təsir göstərir.

## Ë 2. Müasir ailədə və ictimai həyatda Azərbaycan qadınlarının mövqeyi

Azərbaycan xalqının yaranmasında, formalaşmasında Azərbaycan qadını əsrlər boyu əsas sima olmuşdur. Şərqlə, Qərb, Avropa ilə Asiya arasında yerləşən Azərbaycanda qadınlarımız qəhrəmanlıq, analıq təcəssümü kimi tanınmışlar. Azərbaycanda qadınlara hörmət qədimdən mövcud olmuşdur. Arxeoloji qazıntılar zamanı tapılan kiçik qadın heykəlləri də fikrimizi təsdiq edir. Arxeoloq İ.Nərimanovun Şomutəpə yaşayış məskənindən aşkar etdiyi eneolit dövrünə aid qadın heykəlcikləri bu baxımdan maraq doğurur [27, 121-126]. Arxeoloq A.Ələkbərov yazır ki, Azərbaycan ərazisində eneolit dövrünə aid Babadərviş yaşayış sahəsindən tapılan qadın heykəlciyi, onun geyimi, bəzəyi realist stildə təsvir olunmuşdur. Qarğalar təpəsi qazıntı sahəsindən isə çoxsaylı yarımoturaq qadın heykəlcikləri tapılmışdır. Azərbaycan ərazisindən aşkar edilən heykəlciklər Kiçik və Ön Asiyanın qədim əkinçilərinin yaşayış məskənlərindən tapılan qadın heykəlciklərindən ikonoqrafik əlamətlərin olmaması ilə fərqlənirlər [11,19].

E.ə.III-I minillikdə insan bütlərinə sitayiş bütün Zaqafqaziya xalqları arasında eyni dərəcədə yayılmışdı. Öz formaları etibarı ilə diqqəti cəlb edən əsas bütlər gildən hazırlanmış qadın fiqurlarıdır. Mingəçevirdə, İsmayıllı rayonunun Molla İsaqlı kəndində və Ağdam rayonunun Şamılı kəndində həmçinin Naxçıvanda Qızılvəng monastırı yanında məlum olan bu qadın bütlərinin nə başı, nə əlləri, nə də ayaqları vardır. Onların bədən quruluşları da əsasən eynidir. Bir qayda olaraq onların boyu 20-25 sm. olur. Bu fiqurların bəziləri çılpaq, bəziləri isə geyimlidir.

Əksəriyyətinin boynunda muncuq düzümləri vardır. Nisbətən qədim olan bu növ bütlərin başsız və əlsiz, ayaqsız olmasını tədqiqatçı S.Aşurbəyli qədim dövrdə insan qurbanı adəti ilə əlaqələndirir. Strabona görə qədim Azərbaycanda insan qurban vermək adəti vardı. Bu məsələ ilə əlaqədar olaraq tarixçi M.Kalankaytuklu hələ VII əsrdə göstərirdi ki, Albaniyada gavur bütpərəstlərin qurban kəsmək yerləri var idi. Bu məlumata əsasən, S.Aşurbəyli göstərir ki, çox güman ki, insanı qurban kəsmək adəti bütlər üzərində aparılmışdır. Bütlər qurban verilərkən onların kəsilməsi prosesi müəyyən qanunla icra edilmişdir. Daş bültər həcm etibarı ilə gil bütlərdən fərqlənir. Onlar əsasən adam boyda düzəldilmişdir. Sonralar onlardan qəbrin üstünü örtmək üçün istifadə etmişlər. Azərbaycan ərazisində başı, əli, ayağı olan bütlər də tapılmışdır. Azərbaycan ərazisində bu növ bütlərin qalıqlarına yalnız eramızın I əsrinə qədər təsadüf edilir (32, 32-33).

Azərbaycanda insanların istifadə etdikləri bəzək əşyaları təkcə estetik baxımdan deyil, həm də dini sitayiş xarakteri daşıyırdı. Uzaq keçmişimizi özündə əks etdirən Qobustan qayaları üzərindəki kişi və qadın təsvirlərinin bəzək əşyaları ilə bəzənməsi bunu bir daha sübut edir.

Tarixi inkişafın bütün mərhələlərində Azərbaycan qadını cəmiyyətdə əsas sima olmuş, bəşər mədəniyyətinin inkişafında mühüm rol oynamış, həmçinin analıq şərəfini uca tutmuşlar.

*Şirin arzusunu beşik başında*
*Həzin laylalarda çalır analar.*
*Bir yaşıl otun da, körpə quşun da*
*Qeydinə anatək qalar analar.*

*Rəssamdır, həkimdir, adi qadındır,*
*Şöhrəti anadır. Adı qadındır.*
*Bu həyat onundur, o həyatındır,*
*Gücünü həyatdan alar analar (24).*

Şairə Mədinə Gülgünün bu misraları ananın həyati varlığının bir anını təsvir edir. Əlbəttə, «ananın aşı, təndirin başı» atalar sözləri də təsadüfi yaranmayıb. Əsrlər boyu ana balasına dil öyrətmiş, ana dili onun varlığına hopdurulmuş, ana balaya çörək qoxusunu tanıtmış, yurdsevərliyi, ata adının böyüklüyünü öyrətmişdir.

«Kitabi-Dədə Qorqud» dastanı da ana nəfəsinin istiliyindən, ana südünün müqəddəsliyindən, saf ucalığından xəbər verir. Dastanda «Ana haqqı tanrı haqqıdır», «Anam kişi, gəlin kişi», «qadın ana» - sözləri ana adına söylənilən titul kimi səslənir.

Dastanda müxtəlif nəslin nümayəndəsi olan dönməz əqidəli qadınlardan bəhs olunur. Məsələn, ağbirçək qadınlar, ana qadınlar, ana olmaq arzusu ilə sevməyi bacaran gənc qızlar və başqaları. Dirsə xanın, Qazan xanın, Beyrəyin anası, Dirsə xanın qadını, Qazan xanın qadını Boyu uzun Burla Xatun, Dəli Domrulun qadını, həmçinin Banıçiçək, Sarı donlu Selcan xanım, 40 incəbel qız və digərləri. Qadın sədaqəti dastanda ön planda verilir. Belə ki, qıpçaq Məlik Qazan xanın qadını Burla xaturu, oğlu Turalı və qulluqçularını əsir alır. O, Qazan xanı rüsvay etmək üçün qadınına sahib olmaq istəyir. Lakin əsir düşmüş qız-gəlin arasında Burla xatunu tanıyan olmur. Qıpçaq Məlik Turalı hüzuruna gətirtdirir, övlad qorxusu ilə ananı ələ almağa cəhd edir. Tural isə anasına bildirir ki, qoy mənim ətimi qovurma eləsinlər, hamı bir yesə, sən iki ye, təki səni bilməsinlər, duymasınlar. Təki Qazanın namusunu sındırmayasan.

Qazan xan ailəsini azad etməyə gələrkən düşmənə bildirir ki, bütün dövlətindən, bircə oğlundan belə əl çəkməyə razıdır, təki bir-iki günlük ömrü qalmış «qarıcıq» anasına heç nə olmasın! Xan niyə bu çox böyük itkiylə barışıb, yalnız anasını qurtarmağı üstün tutur? Çünki ana sevgisi bütün insan duyğularından, həyat yoldaşının

şərəfindən, övlad məhəbbətindən, dünya nemətlərinə həvəsdən çox-çox yüksəkdə durur.

«Dirsə xan oğlu Buğac xan boyu»nda isə Dirsə xana oğlunun qoca qadını təhqir etdiyi haqda yalan məlumat verirlər. Buna inanan xan ov zamanı oğlunu yaralayır, onu ölmüş bilib gedirlər. Oğlunun ovdan qayıtmadığını görən ana qırx incəbel qız ilə yaralı oğlunu dağlarda axtarıb tapır, ana südü ilə dağ çiçəyinin məlhəmi əvəzedilməz şəfa olur. Yaralı Buğacın dediyi sözlərdə anaya qarşı övlad səmimiyyəti, məhəbbəti təzahür edir:

*Bəri gəlgil!*
*Ağ südün əmdiyim, qanım ana!*
*Ağ birçəkli, izzətli canım ana!*

Dirsə xan dustaq olarkən atasını xilas etməyi oğluna təvəqqe edən ananın şəxsində isə ağıllı Azərbaycan qadınının siması canlanır.

«Baybərənin oğlu Bamsı Beyrək boyu»nda əsirlikdən qayıdan Bamsı Beyrək öz deyiklisi Banıçiçəklə evlənir, andını pozaraq ikinci qızı almaqdan çəkinir.

Dastanın «Duxa qoca oğlu Dəli Domrul boyu»nda Əzrayılın dəli Domrulun canını almamaq üçün əlavə can istədiyini bilən qadını Domrula deyir:

*Yer şahid olsun, göy şahid olsun,*
*Qüdrətli tanrı şahid olsun,*
*Mənim canım sənin canına qurban olsun! (20).*

O, öz canını sevgilisinə qurban verməyi qərara alır.

«Qanlı qoca oğlu Qanturalı boyu»nda isə Sarı donlu Selcan xanım at belində döyüş meydanına gəlir. Qılınc çəkir, meydanda mərdliklə döyüşür. İstəklisini döyüş meydanında tək qoymur. Onlar birlikdə qalib gəlirlər.

Dastanda təsvir edilən qadına hörmət adəti sübut edir ki, ananın ailə həyatında rolunun düzgün qiymətləndirilməsi xalq arasında qədimdən mövcuddur. Bu gün də atalar misalı kimi işlədilən «qadın evin dirəyidir», «qadın evin

yaraşığıdır», «qadın dar gündə kişinin arxasıdır» və s. sözlər buna canlı sübutdur.

Müasir həyatımızda da psixoloji iqlim ailə üçün xüsusi əhəmiyyətə malikdir. Ailədə əlverişli psixoloji iqlim – xoş güzəran, mənalı ömür psixi sağlamlıq deməkdir. Ailə həyatanın ilk fərəhli günlərindən ər-arvad bu həqiqəti bilməli, inanmalıdır. Çünki ər-arvad ünsiyyətinin xarakteri ailədə psixoloji iqlimin əlverişli olub-olmadığını göstərən mühüm amillərdən biridir.

XX və XXI yüzilliyi təsadüfən stress, yəni gərginlik əsri adlandırmayıblar. Lakin ailədə gərginliyin iki qat gərginliyə-distressə çevrilməsinin qarşısının alınması baxımından qadın ailədə əsas simadır. Belə ki, tərəflərin ünsiyyəti, işdən sonra onların psixoloji cəhətdən sakitləşməsi, gərginlikdən azad olması üçün təsirli vasitədir. Həssas qadın kişiyə ürək-dirək verməyin, onu ovundurmağın, tərifləməyin məqamını yaxşı bilir. O, həyat yoldaşının sevincinə də, kədərinə də şərik olur. Bilir ki, qadınlar kimi kişilər də emosional köməyə həmişə möhtacdırlar. Qadın evin kişisinin istək və arzularını öz istək və arzuları kimi qəbul edəndə ailə xoşbəxtliyi üçün zəmin yaranır.

Ailədə psixoloji iqlim əlverişli olduqda qadın həmişə öz dərdini əri ilə bölüşdürür, ondan mənəvi-psixoloji kömək alır.

Ananın çəkdiyi xiffət uşaqlara təsir edir. Uşaqlar bilavasitə ananın həyatı ilə yaşayırlar. Ana güləndə, şad olanda uşaqlar gümrah olur, özlərini xoşbəxi sayırlar.

Ana öz qızına erkən yaşlarından evdarlıq səriştəsini, yəni mənzili yığışdırmağı, döşəməni yumağı xörək bişirməyi, paltar yumağı, ütüləməyi, tikməyi, süfrə açmağı, qonaqlara xidmət göstərməyi, şirniyyat, konservləşdirilmiş məmulatlar hazırlamağı, mürəbbə bişirməyi öyrədir. Ana öz davranışına fikir verməyi, yüngüllük etməməyi, öz ləyaqətini, qadın şərəfini qorumağı da qızlarına vaxtında öyrətməli və özü bu

sahədə nümunə olmalıdır. Ananın uşağa tələbkarlığı zamanı uşaq ondan soyuq münasibət, açıqca verilmiş tələb əlaməti hiss etməlidir.

Hər bir ailənin öz dərdi-səri, inkişaf çətinlikləri vardır. Söz-sözbət, umu-küsü, inciklik və s. onları həll etməyin özünəməxsus formalarıdır. Bu sahədə qadın əsas varlıqdır. Şair N.Həsənzadə demişkən:

*Qadın xoşbəxt elər istəsə, əlbət,*
*Dünyada ən bədbəxt kişini belə (17).*

Ona görə də xalqımızın ata-babadan belə bir adəti də var. Övladlarına qız seçəndə qızın anasını arayırlar:

*Sən nəsil törətmək*
*fikrində olsan,*
*İsmətsiz qadınla*
*evlənmə, dayan*
*… Pis süd şər toxumu*
*yaradar ancaq,*
*Pis əməl qadının*
*südündən uzaq.*

Göründüyü kimi, «Cami-Cəm» əsərində Marağalı Əvhəndi qeyd edir ki, irsiyyət ailədə öz təsirini göstərir. Südü əmilən adamın kimliyinə fikir vermək lazımdır. Yəni tərbiyə almayan adam əyri bitmiş ağac kimidir. Çünki ailədə uşaqların xarakterini ana formalaşdırır (23).

«Ana igidin qalxanıdır» - deyən atalarımız ana ucalığını ana-ana, yüz yol sınaqdan keçirə-keçirə bu sözləri də dövrümüzə gətirib çıxarmışlar:

*Dağ başı qala yeri,*
*Gəz, dolan qala yeri,*
*Yüz candan yanan olsa,*
*Heç verməz ana yeri.*

XIX əsrin axırlarında A.Zaxarov «Zaqafqaziya tatar (azərbaycanlı, N.Quliyeva) qadınlarının ailə və sosial məişəti» adlı məqaləsində qadınların həyatının müxtəlif

sahələrindən söhbət açır. Qeyd edir ki, bu qadınlar körpə uşaqlarını yatırdarkən oğlanlar üçün ayrı, qızlar üçün də ayrıca laylay oxuyurdular. A.Zaxarov XIX əsrin ikinci yarısında yaşamış qadınların fikirlərinə əsaslanaraq yazır ki, laylay – «la ilahə illəllah» yəni «allahdan başqa allah yoxdur» deməkdir. Laylalarda xalqımıza məxsus inamlar, geyimlər, əzizləmələr, məşğuliyyətlər, gündəlik həyati şərait və s. öz ifadəsini tapırdı. Müəllif yazır ki, qadınlar körpələrini ana südü ilə böyüdürdülər. Əgər qadının südü az olsa idi, uşağı qonşu və qohum qadınlardan südü olanlar əmizdirirdi. Südü satmaq isə böyük günah sayılırdı [33, 100].

Müasir ailələrdə qadının – ananın xüsusi rolu var desək yanılmarıq. Çünki ailə həyatının müxtəlif sahələrində qadınların müvafiq yeri vardır. Hazırda Azərbaycanda qadınlar sayca kişilərdən çoxdur. Faktlara müraciət etsək fikrimizi dəqiqləşdirərik.

1921-ci ildə Azərbaycanda 906 385 nəfər kişi, 867 506 nəfər qadın yaşayırdı (7,151). Kişilər qadınlardan sayca 38879 nəfər çox idilər.

1926-cı ildə Azərbaycanda yaşayan əhalinin 1212861 nəfəri kişilər, 1101710 nəfəri qadınlar idi. Qadınlar arasında evlənməyənlər 566 228 nəfər, ailəlilər 478 362 nəfər, dullar 131 206 nəfər, boşanmışlar 4 988 nəfər, digərləri isə 4 496 nəfər idilər (34, 111).

1926-cı ildə kişilərin sayı qadınların sayından 111151 nəfər çox idi.

İşləyən əhali arasında kişilər 655 097 nəfər, qadınlar isə 159 837 nəfər idi (33, 122).

Qadınların sayı kişilərin sayından 1959-cu ildə 185 530 nəfər, 1970-ci ildə 149 263 nəfər, 1979-cu ildə 173 592 nəfər, 1999-cu ildə 187 128 nəfər çox idi (8,22).

Azərbaycanda hər 1000 nəfər kişiyə düşən qadınların sayı 1959-cu ildə 1106,1; 1970-ci ildə 1060,1; 1979-cu ildə 1054,5; 1989-cu ildə 1050,7; 1999-cu ildə 1048, 2 nəfər idi.

1999-cu ildə Azərbaycan Respublikasında yaşayan 7953438 nəfər əhalinin 4070283 nəfəri qadınlar olmuşdur. Həmin ildə yaşı 16-dan yuxarı olan qadınların sayı 2763745 nəfərdir. Onların 623834 nəfəri nigahda olmayanlar, 1746184-ü nikahda olanlar, 62048-i boşananlar, 331679-u isə dul qalanlardır.

1999-cu ildə əhalinin 2694604 nəfəri əmək qabiliyyətli yaşından kiçik olanlar, 4565517 nəfəri əmək qabiliyyətli yaşdan böyük olanlar idi. Qeyd etmək lazımdır ki, qalınlar arasında əmək qabiliyyətlilər 2294600 nəfər, əmək qabiliyyətli yaşından kiçik olanlar 1306538 nəfər, böyük olanlar isə 469145 nəfərdir (8,186).

Qadınlar cəmiyyətdəki mövqeləri ilə də fərqlənirlər. İndi ana həm müəllimdir, həm həkimdir, həm də tibb bacısıdır və s.

Ailədə isə ana uşağın müəyyən hərəkətlərinə göz qoyur, yeri gəldikdə onları başa salır, bütün ədəb, davranış qaydaları ilə bərabər, ən zərif, məsələləri də öyrədir.

«Atasız olan yetim olmaz, anasız və savadsızlar yetimdir» məsəli də yəqin ki, təsadüfi yaranmayıb.

Ailədə ata ilə bərabər ananın da özünəməxsus yeri, iş-gücü, rolu olduğundan ailənin həmin sakininə həmişə ehtiyac duyulur. Müasir ailələrin əksəriyyətinə əsasən ailədaxili münasibətlər dədə-baba qaydası ilə nizamlanır. Ər və arvad bu qaydalara əməl edirlər.

Uşaq gözünü açanda ata-anasının qayğısı ilə böyüyür. Onların ailədə və ailədənkənar bütün hərəkətləri uşaqlara sirayət edir. Ata-ananın şəxsi nümunəsi uşağa bütün həyatı boyu təsir edir. Yaşının hansı dövründə olur-olsun, əksər uşaqlar öz ata və anaları kimi hərəkət edir, rəftarlarını təkrar edirlər. Uşaqların tərbiyəsinə anının təsiri daha çox olur. Həyatlarının ən çətin anında və ya xoşbəxt günlərində uşaqlar necə rəftar etmək lazımdır sualına valideynlərinin şəxsində cavab tapırlar.

Ailədə ana uşaqlarını tərbiyə edir, ailədaxili münasibətləri bilavasitə tənzimləyir, bütün davranış, ədəb qaydaları ilə bərabər ən zərif məsələləri övladlarına öyrədir. Bütün bu incəlikləri adət şəklinə salır və övladına dərk etdirirlər ki, adət insanın ikinci təbiətidir. Ailədə valideynlərə hörmət adətinin möhkəmliyi həmçinin ananın öz həyat yoldaşına olan münasibəti ilə əlaqədardır. Belə olan tərzdə valideynlər arasındakı xoş münasibət, qarşılıqlı hörmət uşaqlarda həyata inam yaradır.

Evin anası – qadını dünyasını dəyişəndə onun yeri daha tez hiss olunur. Odur ki, ailənin yeni sakininə ehtiyac duyulur. Adətən, kənd ailələrində bu normal hal kimi qəbul olunduğundan və hər iki tərəf üçün el adəti ilə tənzimləndiyindən «ögey ana» məfhumu demək olar ki, işlənmir. Ata isə ailə başçısı olduğundan, bütün üzvlər onunla hesablaşırlar. Müasir kənd ailələrində ailədaxili münasibətlər dədə-baba qaydası ilə nizamlanır. Ər və arvad bu qaydalara ciddi əməl edirlər.

Qeyd etmək lazımdır ki, 1907-ci ildə Rusiya Dumasında Azərbaycanı təmsil edən deputat H.Xasməmmədov müsəlman qadınlara seçmək hüququnun verilməsini təklif etdi və müsəlman fraksiyası gərgin müzakirələrdən sonra bununla razılaşdı. Həmin ərəfələrdə qadınlar üçün «İşıq» adlı xüsusi jurnal da nəşr olundu. Əsası 1918-ci ildə qoyulan Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlar kişilərlə bərabər seçmək və seçilmək huququ əldə edib. Qadınlara verilən bu hüquq sovetlər dövründə də reallaşdırılmış, Azərbaycanda bütün sahələrdə qadınlar əsaslı yer tutmuşlar (2,24). Təsadüfi deyil ki, Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsində deyilir: «Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır» (9,18). Hazırda Azərbaycanda seçmək və seçilmək hüququ olan qadınlarımız arasında milli məclisin üzvləri, dövlət idarəetmə sistemi işçiləri vardır.

İnzibati idarəetmə və menecmet sahəsində 30% qadın fəaliyyət göstərir.

1998-ci il yanvarın 14-də Azərbaycan prezidentinin fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Komitənin sədri Zəhra Quliyeva qeyd edirdi ki, söz azadlığı, mətbuat azadlığı həyatımızı tamamilə dəyişmişdir. Bu hər şeydən əvvəl qadınlara da aiddir. Bu gün Azərbaycanda fəaliyyət göstərən qadın təşkilatları qadınların mənafeyəinə xidmət edir. Respublikada 25-dən çox qeyri-dövlət qadın təşkilatı fəaliyyət göstəirir (3,6). Azərbaycanda ümumi əhalinin 51%-i qadınlardır (3,45).

Həkimlərin 70,2 %-i, müəllimlərin 67,9%-i qadınlardır. Bədən tərbiyəsi ilə məşğul olanların 23,3%-i, jurnalistlər və incəsənətin müxtəlif növləri üzrə çalışan qadınlar 40% təşkil edirlər (2,26).

Cəmiyyətdə isə qadınların vəziyyəti biləvasitə ictimai-faydalı əmək prosesində onların iştirakı ilə müəyyən edilir.

Məktəbəqədər tərbiyə müəssisələrində çalışanların hamısı qadınlardan ibarətdir. Həmin tərbiyə müəssisələrində 16738 mütəxəssis işləyir.

Azərbaycan qadınları əsrlər boyu yadelli işğalçılara qarşı mübarizədə mərdlik təcəssümü olmuşlar. İndi də belədir. Jurnalist Salatın Əsgərova və həkim Gültəkin Əsgərova Azərbaycanın Milli Qəhrəmanları sırasındadırlar.

1918-1920-ci illərdə Azərbaycanın tərəqqipərvər qadın ziyalıları – Məryəm xanım Bayraməlibəyova Lənkəranda, Gövhər Şövqiyyə Şamaxıda, Bülbül Kazımova Gədəbəydə, Firuzə Ağayeva, Yaqut Ağayeva, Fərəmuş Paşayeva Gəncədə, Səidə Şeyxzadə, Rəhilə Hacıbabayeva, Sara Vəzirova, Hənifə xanım Məlikova, Zərri Şahtaxtinskaya və başqaları Bakıda xalq maarifinin inkişafına böyük kömək göstərmişdilər. 1921-ci il fevralın 8-11-də Bakıda Azərbaycan qadınlarının I qurultayının keçirilməsi yeni şəraitdə respublikada qadın hərəkatının mühüm göstəricisi sayıla bilər (7,262).

Partiya və hökumət rəhbərləri – A.Axundov, S.Ağamalıoğlu, M.B.Qasımov, D.Bünyadzadə və başqalarının qurultayın işində fəal iştirakı və çıxışları yeni ictimai quruluşun formalaşdırılmasında qadınların roluna verilən böyük əhəmiyyətdən xəbər verildi və bütün bunlar qurultayda qəbul olunan qərarların əsas ruhunu təşkil etmişdir.

Qurultaydan sonra Azərbaycanda qadın hərəkatının mütəşəkkilliyi xeyli artdı. Elə həmin ildə qızlar üçün təşkil olunmuş məktəbəqədər tərbiyə institutu bir il sonra – 1922-ci ildə ali qadın pedaqoji institutuna çevrildi, ilk qadın klubu yaradıldı. 1923-cü ilin noyabrında təkcə Azərbaycanda deyil, eləcə də Şərqdə qadın azadlığı uğrunda mübarizə aparan ilk jurnalın – «Şərq qadını»nın (1938-ci ilin fevralından «Azərbaycan qadını») nəşrə başlaması Azərbaycanda qadın hərəkatı tarixində əlamətdar hadisə oldu.

30-cu illərdə ölkədə aparılan quruculuq işləri, 1941-1945-ci illərdə isə SSRİ-nin cəlb edildiyi ikinci dünya müharibəsi Azərbaycan qadınının əməyə daha geniş cəlb edilməsinə təkan verdi. Dinc quruculuq işlərində kişilərlə çiyin-çiyinə çalışan qadınlarımız müharibə dövründə də bir çox istehsalat sahələrində cəbhəyə gedən kişiləri layiqincə əvəz etdilər. Onlar həmçinin müharibə meydanlarında misilsiz qəhrəmanlıq nümunələri və rəşadət göstərdilər. Müharibə Leyla Məmmədbəyova, Züleyxa Seyidməmmədova, Sona Nuriyeva kimi cəsur təyyarəçilər, Şövkət Səlimova kimi qadın gəmi kapitanı yetişdirdi.

Sovet hakimiyyəti illərində Azərbaycan qadınlarının Bakıda daha üç - II, III və IV qurultayları (28-29 mart 1957-ci il; 20-22 oktyabr 1967-ci il; 15-16 iyun 1972-ci il) keçirilmişdi. Bu qurultaylar Azərbaycan qadın hərəkatının inkişafında və daha mütəşəkkil forma almasında mühüm rol oynamışdı. Qadınların içərisindən partiya, dövlət, komsomol, təsərrüfat işində fəal çalışan bir çox qadınlarla

yanaşı, respublikanın ictimai və mədəni həyatında fəal iştirak edən minlərlə qadın yetişdi. Qadınlarımızın sırasında çox sayda görkəmli həkim, müəllim, mühəndis, ictimai xadim, deputat, əmək qəhrəmanı, alim, müğənni, şair, artist və s. var idi ki, onlar doğma respublikanı təkcə keçmiş SSRİ məkanında deyil, həm də bütün dünyada ləyaqətlə təmsil edirdilər (7,263).

Müstəqilliyini qazandığı il killərdə ölkədə 20-dən çox müstəqil qadın təşkilatı fəaliyyət göstərirdi. Bu qurumların fəaliyyəti sülhün tezliklə əldə edilməsinə, qadın hüquqlarının müdafiəsinə, onların iqtisadi quruculuğa geniş cəlb olunmasına, ailə və uşaqların qorunmasına, qadınlar üçün yeni iş yerlərinin açılmasına, ictimai-siyasi həyatda qadınların fəal iştirakına, ailənin hifz edilməsinə, Qarabağ müharibəsindən əziyyət çəkmiş qadın və uşaqlara lazımi köməklik göstərilməsinə yönəldilmişdi.

Keçid dövrü problemlərinin həll edilməsində və vətəndaş cəmiyyətinin formalaşmasında qeyri-hökumət təşkilatlarını mühüm amil kimi qiymətləndirən Azərbaycan dövləti onların potensialının artırılması və fəaliyyətinin gücləndirilməsi üçün geniş imkanlar yaradır, onların əsaslandırılmış təkliflərini və təşəbbüslərini müdafiə edir. Bu məqsədlə 1997-ci ildə Azərbaycan hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında imzalanmış razılaşmaya əsasən Azərbaycanda Qeyri-hökumət təşkilatlarının Resurs və Təlim Mərkəzi yaradılmışdır (7,155).

Bu gün ölkənin ictimai-siyasi həyatında fəal rol oynayan «Sevil» Qadınlar Məclisi, Neftçi Qadınlar Cəmiyyəti, Bakı Qadınlar Assosiasiyası, «Qadın və İnkişaf» Mərkəzi, D.Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti və digərləri ilə yanaşı, yeni qadın təşkilatları da yaranmaqda və öz fəaliyyət dairələrini genişləndirməkdədir.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş ilk Konstitusiyası qadınların kişilərlə bərabər

hüququnu təsdiq etdi və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratdı. Konstitusiyanın «Əsas hüquqlar, azadlıqlar və vəzifələr» adlanan ikinci bölməsinin üçüncü fəslində («Əsas insan və vətəndaş hüquqları və azadlıqları») 25-ci maddədə oxuyuruq: «Kişi ilə qadının eyni huquq və azadlıqları vardır».

Azərbaycan qadınları  Konstitusiyamız və digər qanunvericilik aktları ilə müəyyən olunmuş geniş hüquqlardan, cəmiyyətimizdə gedən demokratikləşmə proseslərindən istifadə edərək qısa bir müddətdə sayı 41-ə çatan qadın təşkilatları yaratdılar. Bu təşkilatlar arasında «Sevil» Qadınlar Məclisi, Neftçi Qadınlar Cəmiyyəti, Bakı Qadınlar Assosiasiyası, «Qadın və İnkişaf» mərkəzi, D.Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti «Əsgər anaları», «Şəhid anaları» cəmiyyətləri və başqaları öz fəaliyyətlərini genişləndirərək Azərbaycanda qadının vəziyyətinin yaxşılaşdırılması, onun sosial-iqtisadi problemlərinin həlli, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi və digər məsələləri nizama salmaq sahəsində dövlətin fəaliyyətini gücləndirmək üçün yollar arayıb axtardılar. Ölkəmizdə qadın hərəkatı müstəqillik şəraitində öz inkişafının yeni mərhələsinə qədəm qoydu, onun beynəlxalq əlaqələri genişləndi.

1995-ci ilin iyulunda Pekində keçirilən IV Ümumdünya Qadınlar Konfransına istər hazırlıq dövründə, istərsə də onun işində Azərbaycan qadın təşkilatlarının fəaliyyəti bu baxımdan xüsusilə əlamətdar oldu. Konfransda iştirak edən Azərbaycan qadınlarının nümayəndə heyəti ümummilli məruzə hazırlayaraq respublikamızdakı demokratik proseslər, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış ağır vəziyyət, ərazimizin 20 faizinin erməni qəsbkarları tərəfindən işğal edilməsi, bir milyon nəfərdən çox vətəndaşımızın, o cümlədən qadınların, uşaqların, qocaların çadırlarda qaçqın

və köçkün vəziyyətində yaşaması və sair barədə həqiqətləri dünya qadınlarının nümayəndələrinə layiqincə çatdıra bildilər (7,264).

1995-ci ildə Azərbaycanda qadın hərəkatının mütəşəkkilliyinin artmasında Birləşmiş Millətlər Təşkilatının «Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında» 30 iyun 1995-ci il tarixli Konvensiyasına Azərbaycan Respublikasının qoşulmasının və bununla əlaqədar öz üzərinə müvafiq öhdəliklər götürməsinin də mühüm rolu oldu (7,265).

Bu gün ölkəmizdə iqtisadiyyat sahəsində çalışan qadınların sayı 1 milyon 767 min nəfərdir. Bu, iqtisadiyyatda çalışan bütün insanların təqribən yarısı deməkdir… Dövlət gündüz ümumtəhsil məktəblərində bütün müəllimlərin 69 faizini, orta ixitisas məktəblərində 64 faizini, ali məktəblərdə isə 40 faizini qadınlar təşkil edir. Ölkənin ali məktəblərində təhsil alanların 42 faizi qızlardır. Səhiyyə sahəsində çalışanların yarıdan çoxu qadınlardır. Mədəniyyət, incəsənət sahəsində qadınların mövqeyi, onların oynadığı rol hər kəsə məlumdur. 2000-ci ildə mədəniyyət sahəsində çalışan 60-dan çox qadın yüksək fəxri adlara, ordenlərə, prezident tərəfindən verilən fəxri təqaüdə layiq görülmüşdür» (7, 267).

Deməli, həyatın yaradıcısı, insan nəslini davam etdirən anaların həyatının hər anı ev-ailə-uşaq-əmək prosesləri ilə səciyyəvidir. Odur ki, ailədaxili münasibətləri düzgün qurmaq, uşaqları böyütmək, onları ailə və cəmiyyət həyatına hazırlamaq, ailədə psixoloji iqlimi sabit saxlamaq sahəsində qadın əsas qüvvədir.

## Ë 3. Müasir Azərbaycanda nikah və toy mərasimlərinin bəzi məsələləri

Ailə munasibətlərinin ayrılmaz hissəsi kimi insanların ictimai birliyini nikah və qohumluq sistemi əlaqələndirir. Tarixən Azərbaycanda endoqam (oğlanların qohum qızlarla evlənmələri) və ekzoqam (tamamilə kənar ailələrdən olan qızlarla evlənmələri) kəbinlər yayılmışdır.

Keçmişdə Azərbaycanda levirat və sororat adətləri geniş yayılmışdı. Levirat adətinə görə (latınca liver sözündən olub qayın deməkdir) kiçik qardaş böyük qardaşın dul qalmış arvadını alırdı. Sororat adətinə görə (soror latın dilində bacı deməkdir) arvadı vəfat etmiş kişi onun bacısını alırdı.

Azərbaycanda keçmişdə levirat və sororat adətləri geniş yayılmışdı. Sororat adəti el arasında vəfat etmiş bacının uşaqlarına hamıdan yaxşı xalası baxar ifadəsindəndir. Bu adətlər XX əsrin əvvəllərinə kimi nisbətən yayılmışdı. Hazırda endoqam və ekzoqam nikahlar geniş yayılmış, sororat və levirat adətlərinə isə çox az təsadüf olunur.

Keçmişdə münasibətləri yaxşı olmuş ailələr, dostlar arasında mövcud olmuş və geniş yayılmış «beşikkərtmə», «göbəkkəsdi», «deyikli» adətləri indi demək olar ki, yox dərəcəsindədir. «Çoxarvadlılıq», «qızqaçırma», «qoşulub qaçma»ya az təsadüf olunur. Müvəqqəti kəbin olan siğəyə demək olar təsadüf olunmur.

Hazırda nikaha daxil olanlar arasında 20-29 yaşlılar əsas yer tuturlar. Çünki bu yaş həddində gənclər öz qarşılarında duran müəyyən vəzifələri yerinə yetirmiş olurlar. Belə ki, onlar orta və ya ali məktəbi bitirir, hərbi qulluqlarını başa vurur və müəyyən mənada əmək fəaliyyətinə başlaya bildiklərindən evlənə bilirlər. Azərbaycanın rayonlarında təkrar nikahlara az təsadüf olunur. XX əsrin 70-ci illərində Azərbaycanın qərb

rayonlarında təkrar nikahlar ümumi nikahların təxminən 4,38%-ni, 80-ci illərində isə təqribən 3,73%-ni təşkil edirdi. Bu isə kənd rayonlarında təkrar nikahların azalmağa doğru getdiyini sübut edir. Nikahlar adətən Rayon VADQ-larında və kənd ərazi icra nümayəndəliyində qeyd olunurdu. 80-ci illərdə təntənəli nikahlar təqribən bütün nikahların 80%-ni təşkil edirdi (20,61). Kəbin kəsilən gün adətən bir ay əvvəl müəyyən olunurdu. Təyin olunan gün qızın evinə qohumlar, qonşular və dostlar yığışırdılar. Bəy iki nəfər yaxın dostu ilə qız evinə gəlir, oradan isə qızın rəfiqələri, yaxın qohumları ilə VADQ-a, yaxud kənd ərazi icra nümayəndəliyində gedirdilər. Nikah mərasimində hamı yeni evlənənləri təbrik edir, birlikdə şəkil çəkdirir, sonra müharibə qəhrəmanlarının və ya əmək veteranlarının abidəsi önünə gül qoyur, şənliyi davam etdirmək üçün qız evinə, bəzi hallarda oğlan evində toy olanda oğlan evinə gedirdilər.

Azərbaycanda 1934-cü ildə 22985 nikah, 10207 boşanma, 1989-cu ildə 71874 nikah, 11436 boşanma, 1990-cı ildə 73119 nikah, 14040 boşanma, 1991-74378 nikah, 10679 boşanma, 1992 – 68740 nikah, 9465 boşanma, 1993-60028 nikah, 6564 boşanma, 1994-47147 nikah, 6256 boşanma, 1995 - 43378 nikah, 5669 boşanma, 1996 – 38572 nikah, 5598 boşanma, 1997- 46999 nikah, 5806 boşanma, 1998 - 38718 nikah, 5667 boşanma, 1999- 37382 nikah, 5013 boşanma, 2000 – 39611 nikah, 5478 boşanma, 2001-də 41861 nikah 5382 boşanma hadisəsi olmuşdur (1,134).

2001-ci ildə qeyd olunan nikahların – 22927-i şəhərlərdə, 18934-ü kəndlərdə; boşanmaların 4341-i şəhərlərdə, 1041-i kəndlərdə olmuşdur (1, 137).

Ümumiyyətlə, oğlanlar arasında evlənənlər 25-34 yaş səviyyəsində çoxluq təşkil edir. Qadınlar arasında isə 18-24 yaş səviyyəlilər arasında evlənənlər çoxdur. Faktlara müraciət edək: 1960-cı ildə 46635 nikahın 21965-i, 1990-cı ildə 36712-si, 1991-ci ildə 38411-i, 1992-ci ildə 34752-si

1993-cü ildə 31273-ü, 2001-ci ildə 25392-si 25-34 yaşlı kişilər, 1990, 1993-cü illərdə isə 18-24 yaşlılar üstünlük təşkil edirdilər.

Qadınlar arasında isə qeyd etdiyimiz kimi 18-24 yaş səviyyəlilər sırasında 1960-cı ildə bağlanan 46635 nikahın 24450-si, 1990-cı ildə 49787-si, 1991-ci ildə 53102-si, 1992-ci ildə 49505-i 1993-cü ildə 39299-u, 2001-ci ildə 26960-ı təşkil etmişdi (1,176).

Əvvəllər nikah mərasimlərinin icrasında yəni kəbin kəsiləndə mehrin (mehr oğlan tərəfindən qıza veriləcək müəyyən məbləğ puldur) və ya sədağın (mehr-sədaq isə sovet hakimiyyətinin ilk illərində şura kəbinində yenə də oğlan tərəfindən qıza verilən xüsusi bir qəbz idi) miqdarı da müəyyən olunurdu (22,3). Hazırda mehr əvəzinə Azərbaycanın müəyyən kənd rayonlarında süd pulu, yol pulu, süd haqqı, torpaq basma, xərc və ya başlıq qismən qalmaqdadır.

Qeyd etmək lazımdır ki, 90-cı illərdə təntənəli nikahların sayı xeyli azalmışdır. Bunun səbəbini sosial və iqtisadi amillərlə izah etmək olar. 1995-ci ildə Azərbaycanda 43378 nikah qeyd olunmuşdur. Həmin nikahların 27518-i rayonlarda, 9810-u Bakı şəhərində, 3342-si respublikanın digər şəhərlərində, 2708-i Naxçıvan MR-da qeyd olunmuşdur.

1998-ci ildə isə Azərbaycanda bağlanan nikahların sayı 38718 idi. Onların 24636-sı rayonlarda, 9617-si Bakı şəhərində, 2313-ü Naxçıvan MR-da, 2152-si respublikanın digər şəhərlərində qeyd olunmuşdur.

Nikahların 1230-u təntənəli olmuşdu. Naxçıvanda qeyd olunan nikahların cəmi 10-u yəni 0,42%-i təntənəli nikahlar idi. Həmin nikahlar isə Naxçıvan şəhərində qeyd olunmuşdu.

1998-ci ildə respublikanın şəhərlərində ilkin nikahlar 64.35%, təntənəli nikahlar 57,16% idi (15).

Həmin illərdə Azərbaycanın kənd rayonlarında bağlanan nikahların sayına görə Bərdə, Şəki, Şəmkir, Lənkəran, Xaçmaz rayonları üstünlük təşkil etmişdir.

1995-ci illə müqayisədə 1998-ci ildə respublikada qeyd olunan nikahların cəmi 10-u, yəni 0,42%-i təntənəli nikahlar idi. Həmin nikahlar isə Naxçıvan şəhərində keçirilmişdi.

1998-ci ildə respublikanın şəhərlərində ilkin nikahlar 64,35%, təntənəli nikahlar 57,16% idi (15).

Həmin illərdə Azərbaycanın kənd rayonlarında bağlanan nikahların sayına görə Bərdə, Şəki, Şəmkir, Lənkəran, Xaçmaz rayonları üstünlük təşkil etmişdir.

1995-ci illə müqayisədə 1998-ct ildə respublikada qeyd olunan nikahların sayı istər kənd və istərsə də şəhər yerlərində azalmışdır. Adətən təkrar və təntənəli nikahlara şəhər əhalisi arasında daha çox təsadüf olunur.

Kənd rayonlarında təntənəli şəraitdə qeyd olunan kəbinlərin əksəriyyəti rayon mərkəzlərində keçirilirdi. Əlbəttə, kəndlərdə təntənəli nikah mərasimlərinin keçirilməsinə sosial-iqtisadi amillərlə yanaşı əhalinin maraq dairəsi dərəcəsi də təsir göstərirdi.

Ümumiyyətlə, Azərbaycan kəndlərində nikahların sayı əvvəlki illərə nisbətən azalmışdır. 2000-ci ildə Azərbaycanda qeyd olunan nikahların sayı 39611, boşananların sayı 5478 idi. Lakin boşananlar kəndlərdə, şəhərlərə nisbətən azlıq təşkil edir.

Müasir dövrdə evlənənlər arasında əsas şərt gənclərin münasibətlərindən doğur. Birgə təhsil, iş şəraiti və digər şərtlər bunu əsaslandırır. Nikaha daxil olanlar arasında 20-29 yaşlılar əsas yer tutur. Həmin yaş həddində gənclər öz qarşılarında duran müəyyən vəzifələri yerinə yetirmiş olurlar. Lakin son illər ailə quranlar arasında erkən nikahlara da təsadüf olunur. Bu hal qızlar arasında nisbətən çoxdur. Lakin rəsmi olaraq nikah yaşı gözlənilir.

Toy mərasimlərinin qeyd olunmasında ənənəvi toy adətləri ilə yanaşı yeni adətlər də inkişaf etmişdir. Lakin

müəyyən ənənəvi adətlərin, məsələn, başlığın forması dəyişilərək müəyyən bölgələrdə saxlanılmasına təsadüf olunur. Azərbaycanın kənd rayonlarında adət-ənənələrin icrasında ənənəvi adətlərə sadiqlik daha çox nəzərə çarpır. Şəhər toylarında isə əksər hallarda ənənəviliklə yanaşı müasirlik ön plana çəkilir. Belə ki, müasir toy mərasimlərində ümumiləşdirmə aparılır. Müəyyən adətlər ixtisar edilir. Məsələn, bəy tərifi, xınayaxdı və s. Toylarda ənənəvi rəqslər, yəni tək ifa olunan, duet rəqsləri, yallıların forması dəyişdirilir.

Toylarda saz, qara zurna, muğam üçlüyü və başqaları çox vaxt unudulur. Çox güman ki, şəhər toylarında bu cür hallar əksər hallarda sosial təbəqədən, toyu idarə edən musiqiçilər və toyda iştirak edən digər millətlərin nümayəndələrinin şərəfinə verilən sifarişlərdən də asılı olur.

Toy mərasiminin ayrı-ayrı mərhələlrinin tədqiqi xalqın mədəni irsinin səciyyəvi xüsusiyyətlərini aşkara çıxarmaq işinə imkan yaradır.

Toya qədər bir sıra adət və ənənələrin icrası vacib hesab edilir. Məsələn, «qız bəyənmə», «elçilik», «hə vermə» (şirin çay, həri, xətircəmlik), «bəlkə» (üzük aşı, balaca üzük), yaxud «nişan», «nişan qabağı qaytarmaq», «oğlan evində tədarük», «qız evində paltar kəsdi» və ya «paltar biçdi», cehizin oğlan evinə aparılması, «kəbin kəsilməsi», «qız evində xına yaxdı», «qızın ata evindən köçməsi və oğlan evinə gətirilən gün», «oğlan toyu».

Müasir dövrdə evlənənlər arasında əsas şərt gənclərin münasibətlərindən doğur. Belə ki, birgə təhsil, iş şəraiti və ya digər şərtlər bunu əsaslandırır.

Kənd rayonlarında toy mərasimlərinin icrası – «məsləhət toyu» və ya «sərpayı axşamı», «xına toyu» ilə başlayır, «hümmət toyu», «dərviş toyu», ümumiyyətlə təntənəli toy mərasimi ilə başa çatır. Toy mərasimlərinin icrasında isə masa bəyi, toy babası, xan dağ, bəy başı, padşahlıq, yengə və  ya sərpayıların xüsusi yeri vardır.

Toylarda adətən «şax qaldırmaq», «şax bəzəmək», «müəyyən ənənəvi oyunlar keçirmək, bəyi tərif etmək, duvaq açdı, üzə çıxdı, çay süzdü, üç günlük, duvaqqapma, əl öpmə, qada qurbanı kəsmək, ayaq açdı, ata malı vermək, böyük görmə, qudalıq və digər ənənəvi adətlər indi də qalmaqdadır.

Əlbəttə, Azərbaycanın kənd rayonlarında adət-ənənələrin icrasında ənənəvi adətlərə sadiqlik daha çox nəzərə çarpır.

Şəhər toylarında isə əksər hallarda ənənəviliklə yanaşı müasirlik daha ön plana çəkilir. Belə ki, müasir toy mərasimlərində ümumiləşdirmə aparılır. Müəyyən adətlər ixtisar edilir. Məsələn, bəy tərifi və s. Toylarda digər xalqların rəqs və mahnılarından geniş istifadə olunur. Milli rəqslər əksər hallarda az ifa olunur, yaxud rəqslərin ifasında tam qarışıqlıq yaranır. Xüsusilə də, toylarda ənənəvi olan saz, qara zurna, muğam üçlüyü və s. çox vaxt unudulur. Ənənəvi rəqslər yəni tək ifa olunan rəqslər, duet rəqsləri, yallıların forması tamamilə dəyişdirilir. Çox güman ki, şəhər toylarında bu cür hallar əksər hallarda sosial təbəqədən, toyu idarə edən musiqiçilərdən və toyda iştirak edən digər millətlərin nümayəndələrinin şərəfinə verilən sifarişlərdən də asılı olur.

Qədim tarixə malik olan Azərbaycan xalqının özünəməxsus xüsusiyyətləri nikah və toy mərasimlərində bu gün də saxlanılmışdır.

## Ë 4. Müasir ailələrdə böyüklərin yeri, bəzi valideynlərin və uşaqların dövlət himayəsinə verilməsinin sosial-psixoloji əsaslarına dair

Ailə üzvlərinin ailədaxili münasibətlərdə ata-anaya, nənə-babaya münasibət xüsusi yer tutur. Ailə uşaqları tərbiyə edir yetişməkdə olan şəxsiyyətə hərtərəfli təsir göstərir. Bu təsir nəinki uşaqların valideynlərinə məhəbbəti, həm də bu hissin doğurduğu səyə – hər cəhətdən onlara oxşamaq səyinə əsaslanır. Deməli, ailə daxilində şəxsi münasibətlərin etik xüsusiyyətləri vardır. Bu xüsusiyyətlər ənənəvi davranış qaydalarında əksini tapır. Kiçiklərin böyüklərə, uşaqların valideynlərə, qadınlara, qocalara hörmət etmələri vacibdir. Ata ailədə idarəedici, tərbiyəedici, həm də asudə vaxtın tənzimedicisidir.

Müasir ailə başçısı, ən əvvəl evə və digər əmlaka malik olan hüquqi səlahiyyətli şəxsdir. Münaqişələr zamanı başçı, onun hüquqları ilə hesablaşmağı tələb edə bilir və bir sıra üstünlüklərə malikdir. Qadınların ailə başçısı olması, onların əri vəfat etdikdə, ərindən boşanıb müstəqil yaşadığı hallarda olur.

Lakin ata olan yerdə evli oğulun başçılıq etdiyi ailələr də vardır. Əgər bu vəziyyət əvvəllər yalnız atanın qoca olduğu, daha ailəni və təsərrüfatı idarə edə bilmədiyi zaman yaranırdısa, indi həlledici rolu təhsil səviyyəsi, ailənin iqtisadi cəhətdən təmin olunması prosesi oynayır. Digər uşaqların təhsil və davranışına böyük oğul nəzarət edir.

Müasir ailələrin xarakterik xüsusiyyəti ailə münasibətlərinin demokratikləşməsində əks olunur. Ailə daxilində kiçiklərin böyüklərə tabeçiliyi hökm sürür.

Xalqımızda belə bir məsəl var: «Allahsız yerdə otur, böyüksüz yerdə oturma». Deməli, böyük olan yerdə hörmət də var, bərəkət də. Ona görə böyüklərə hörmət edir, onun sözünü uca tuturlar. Axı hörmət olan yerdə rahat həyat var,

Azərbaycan kəndlərində indi də müəyyən adətlər yaşayır. Belə ki, bir-birinə düşmən kəsilən ailələrin söz-söhbətinə ancaq el ağsaqqalları son qoyurlar.

Xalqımıza məxsus adət-ənənələrin qorunub saxlanılması, böyüyün böyük, kiçiyin kiçik kimi yerinin bilinməsi ailə daxilində formalaşan etik normaların formalaşdırılmasının nəticəsidir.

Mühüm işlərin həllində, narazılıqların aradan götürülməsində «ağsaqqalların», «ağbirçəklərin» xüsusi rolu vardır: «Qafqazda qocalar öz ailələri, qohumları, nəsli və həmişə təmasda olduğu camaatla bir yerdə qalır. Bu birlik, bu təmas həm hiss-həyəcan, həm də fiziki fəaliyyətlə bağlı olur. Onların gördüyü iş yalnız fiziki əməklə məşğuliyyət deyildir, bu eyni zamanda, camaata kömək göstərildiyini dərk etmək deməkdir» (14,206).

Hər bir kənddə ağsaqqala, hər bir ailədə ataya, anaya hörmət öndə durur. Ana ailədə evin işlərini qaydaya salır, uşaqların tərbiyəsi ilə məşğul olur. Anadan sonra böyük bacı, atadan sonra böyük qardaş xüsusi yer tutur.

Azərbaycan ailələrində ata, əmlakın sahibi və cavabdehidir. Övladlarının evləndirilməsi, müstəqil təsərrüfat olması, ailədə əmlak münasibətlərinin tənzimi onun üzərinə düşür.

Ailədə ərlə-arvadın birgə əmlakı mövcuddur. Bir qism ailələrdə mayorat, yaxud minorat ənənəsinə sədaqət indi də qalmaqdadır. Minorat adətinə görə ev adətən kiçik oğula verilir. Çünki, kiçik oğullar böyük oğula nisbətən gec evlənir və buna görə də əksər hallarda valideynlərilə qalır, təsərrüfat işlərində valideynlərinə kömək edirlər.

Qız övladlarına verilən cehiz ümumi ailə büdcəsi hesabına ödənilir. Əgər ailədə oğlan uşaqları bir neçə nəfərdirsə ata evləndirilən böyük oğlu üçün ailənin köməyi ilə ev tikdirilir, onu şəxsi təsərrüfata köçürür. Müstəqil təsərrüfata malik olan oğul üçün ata ümumi əmlakdan pay ayırır. Məsələn, iki dəst yorğan-döşək, kilim, xalça, «ata

malı» hesab olunan mal-qara və s. Ailənin digər oğul uşaqlarına da bu cür pay verilir. El adətinə görə cehiz müstəmna olmaqla, qızlar ailənin digər əmlak bölgüsündə iştirak etmirlər. Ev, həyətyanı təsərrüfat, mal-qara kiçik oğulun payına düşür. Ata və ana kiçik oğulla birlikdə yaşayırlar. Vəfat etmiş valideynlərin dəfn edilməsində ailənin evlənib ayrılmış digər üzvləri bilavasitə iştirak edirlər.

Göstərildiyi kimi, müasir kənd ailələrində vərəsəlik və əmlak bölgüsü mövcud qanunlara əsaslanaraq el adətləri prinsiplərini özündə əks etdirir.

Əlbəttə, tarixən xalqımızda belə bir həqiqət üstün olmuşdur ki, övlad ata-ana yolunda hər cür fədakarlığa hazır olmuşdur. Müasir ailələrdə isə bəzən bu prinsip, oğulun, ya fərsizliyindən, yaxud tədbirsizliyindən, kəsərsizliyindən ailədaxili münasibətlərdəki tarazlıq pozulur. Nəticədə ailədə ata, yaxud ana tam bədgüman olur və onlarda əsəb gərginliyi frustrativ hal yaranır. Əkbər Bayramovun sözləri ilə desək, «Frustrasiya» (latınca frustratio – aldanmaq, nahaq gözləmə, əhval pozğunluğu) – insanın öz məqsədinə çatmasına maneçilik törədən real və ya xəyali maneələrlə rastlaşdığı zaman düşdüyü psixi vəziyyətdir… Frustrasiya yalnız o zaman ortaya çıxır ki, insanın narazılıq və ya təmin olunmamaq səviyyəsi onun dözüm səviyyəsindən üstün olur. Frustrasiya halətində insanda dərin psixi sarsıntılar baş verir, bir sıra nevrozların baş verməsi də frustra haləti ilə izah edilə bilər» (16,86). Bu hal əsasən evin kişisi vəfat etdikdə onun qadınında, yaxud əksinə qadın vəfat etdikdə kişidə rast olunan haldır. Bəzən də, ailədə yaşlı üzvlərdə yaranan əsəb gərginliyi nəticəsində çoxdanışqanlıq, əsassız söz-söhbətlər ailənin digər üzvlərini bir növ çaşdırır. Belə olan tərzdə həmin şəxsləri müalicə etdirmək, inandırmaq lazımdır. Əks təqdirdə ailədə yaranan psixoloji gərginliyi aradan qaldırmaq mümkün olmur. Nəticədə, ya övlad valideynini qocalar evinə aparır, yaxud

valideyn özü bu yolu seçir. Çünki, çox həssas və xüsusən də cılız xasiyyətli qocalar tez inciyirlər. Götürümlü, ötürümlü olmurlar. Evdə gəlin ilə hesablaşmırlar. Özlərini ailədə artıq adam hiss edirlər.

2003-cü ildə Bakının Bilgəh qəsəbəsində yerləşən «Müharibə və əmək əlilləri üçün pansionat»da, Buzovna qəsəbəsindəki 9 saylı ruhi-əsəb, qoca və əlillər üçün internat evi»ndə, Ramana qəsəbəsindəki «Gənc əlillərin əmək və istirahət evi»ndə, Gəncə şəhərində yerləşən «Pensiyaçılara ərazi sosial xidmət mərkəzi»ndə, Xanlar rayonundakı «8 saylı ruhi-əsəb təmayüllü internat evi»ndə, Şamaxı rayonundakı «1 saylı internat evi»ndə oldum. Qeyd etmək lazımdır ki, Naxçıvan MR Şahbuz rayonunda da «Ahıl və kimsəsizlər üçün pansionat» vardır.

Gəncə şəhərində yerləşən «Pensiyaçılara ərazi sosial xidmət mərkəzində yaşayan 102 nəfərin 70 nəfəri ruhi xəstədir. 32 nəfər isə qocalardır. Onlar tam dövlət təminatındadırlar. Təqaüdlərinin yarısı müəssisənin fondunda qalır.

Dövlət himayəsində olan bu şəxslərin hamısı hazır yemək yeyirlər. Lakin öz razılıqları ilə bir yerdə yaşayanlar hər ay öz paylarını ərzaq formasında dövlətdən alır və yeməklərini özləri hazırlayırlar. Həmin şəxslərin bəziləri bir otaqlı, müəyyən hissəsi isə iki otaqlı mənzildə yaşayırlar.

Mərkəzin sakini Qurbanov Fərhad mühəndisdir. Onun 76 yaşı var. İki övlad böyüdüb, evləndirmişdir. Gəncə şəhərindəndir.

Fərhad kişinin oğlu atasının evini satmış, Rusiyaya getmişdir. Bir müddət qızı evində yaşayan Fərhad kişi özü qocalar evinə gəlmişdir.

Fərhad kişi bildirir ki, qızı imkansızdır. Mən övladlarımın da dərdini çəkirəm. Atası qocalar evinə getdikdən sonra qızı onu yenidən evinə aparsa da, Fərhad kişi geri qayıtmışdır. O deyir ki, hər şeyi açıb danışa bilmərəm «dəyinib gəlmişəm». Yoldaşları bildirdilər ki,

Fərhad kişinin nəvəsinin «hə»si idi. Babanın qocalar evində olması təhqir sayıla bilərdi. Odur ki, onun qızı gəlib atasından xahiş edib, onu yenidən evinə aparmışdı. Nəvəsinin toyu olana qədər ata evdə oldu. Sonra yenə də qocalar evinə qayıtdı.

Fərhad kişi ilə bir otaqda yaşayan Sənubər Mustafayeva da Gəncə şəhərindəndir. O qızından çox narazıdır. Kürəkənindən isə razıdır. Hətta, «sonsuzluğu xoşbəxtlik» adlandırır. Sənubər arvad özü qocalar evinə pənah gətirmişdir.

İmanov Sabirin 77 yaşı var. Gəncədə böyüyüb. Əvvəllər avtobus sürücüsü, 15 il isə ticarətdə işləyib. 4 qız, 2 oğul övladlarını böyütmüş, evləndirmişdir. Uşaqların ikisinin ali, ikisinin isə orta ixtisas təhsili var.

Sabir kişi dedi ki, çox mehriban ailəm var idi. Həyat yoldaşımla birlikdə övladlarımızı böyütdük, nazlarını çəkdik. Hər şey həyat yoldaşımın vəfatından sonra başladı. Əvvəllər mən onun ölümü ilə barışa bilmirdim. İstəyirdim ki, onunla bərabər ölüm. Sonralar isə özümü artıq adam hesab etməyə başladım. Heç kəs mənə istənilən kimi baxmırdı. Öz-özümə dəyindim və buraya gəldim.

Əliyev Mikayıl isə 1934-cü il təvəllüdlüdür. Ömrünün çox hissəsini həbsxanada keçirib. Övladı yoxdur. Mikayıl kişi ilə söhbət əsnasında bildirdi ki, kaş bir övladım olaydı, gətirib məni qocalar evinə qoyaydı.Əlavə etdi ki, birinci həyat yoldaşımın uşağı olmurdu. O məni evləndirdi ki, övladım olsun. Amma uşağı boğub öldürdü. Uşağın anası isə qaçdı. Hara getdiyini indi də bilmirəm. Mən də birinci yoldaşımı öldürdüm, tutuldum. Uzun illər həbsxanada yatdıqdan sonra məni azad etdilər. Amma hara gedim? Getməyə yerim yox idi. Mən qohumlarımın evinə gəldim. Amma yaşamaq çətin idi. Ona görə sirkə içdim, ölmək istədim. Bu hadisədən sonra nazirliyin sosial-təminat şöbəsinin göndərişi ilə buraya gəldim.

Mərkəzin direktoru Məryəm xanım bildirdi ki, ilk günlər Mikayıl kişi yaşamaq istəmirdi. Bu həyata öyrənə bilmirdi,onu düşdüyü vəziyyətdən çıxarmaq üçün yollar axtardım. Qərara gəldim ki, ona münasib qadın yoldaş tapım. Mərkəzin digər sakini Elmiraya müraciət etdim.

Elmira bu təklifi qəbul etdi. Elmira Mikayıl kişi ilə yoldaşlıq edəndən Mikayıl kişinin də üzü gülür.

Qocalar evinin digər sakini, milliyətcə rus olan Fenyanın qızı anasının evini satıb, onu da özü ilə Rusiyaya aparıb, sonra isə anasını qatara mindirib, yenidən Azərbaycana göndərib. Ananın getməyə yeri olmadığından qocalar evinə gəlib.

Milliyətcə rus olan Tamaranın isə oğlu əsgərlikdə həlak olub. Evini keçirib qonşusunun adına. Qonşusu isə şeylərini götürüb, evini satıb, özünü də çöllərə atıb. Qocalar evində sığınacaq tapan Tamaraya bir otaq veriblər. Məryəm xanım onun əşyalarının gətirilməsini təşkil edib. Tamara evini əşyaları ilə bəzəyib, oğlunun şəklinii isə divardan asıbdır. Deyir ki, indi mən özümü çox rahat hiss edirəm. Mənə dövlət qayğı göstərir. Zənn edirəm ki, oğlumla bir otaqda yaşayıram.

Məryəm xanım qeyd etdi ki, əvvəllər Tamara qorxu içində yaşayırdı. Deyirdi ki, binanın başında snayper var, məni vurmağa hazırlaşır.  Çox təbliğat apardıq, ona nəvaziş göstərdik. Axır ki, Tamaranın əsəbləri sakitləşdi.

Ümumiyyətlə, qocalar evində yaşayanların hamısı dövlət təminatındadır. Şərait yaxşıdır. Klubları, istirahət otaqları, televizorları vardır. Ayrı-ayrı otaqda olan televizorları qocaların övladları, yaxud yaxınları gətirmişlər.

Məryəm xanım qeyd etdi ki, bizə yardımlar gətirirlər. Deyirlər ki, nəyiniz çatmırsa gətirək. Biz də istəklərimizi bildiririk. Ayrı-ayrı imkanlı adamlar vaxtaşırı burada yaşayanların hamısına yemək verirlər.Mərkəzdə Məryəm xanımla birlikdə otaqları gəzərkən bir otaqda tək yaşayan

Aytən Cəfərovanı gördüm. Öyrəndim ki, valideynləri yol qəzasından həlak olublar, o uşaq evində böyüyüb.

Bilgəh qəsəbəsində yerləşən «Müharibə və əmək əlilləri üçün pansionat» 150 yerlikdir. Burada yaşayanların sayı 140 nəfərdir. Onların 64 nəfəri qadın, 76 nəfəri kişidir. 103 nəfər qocalığa, 37 nəfər isə əlilliyə görə qocalar evində yaşayırlar.

Üç nəfər uşaqlıqdan, 34 nəfər isə sonradan əlil olanlardır.

Qocaların 139 nəfəri azərbaycanlı, 25 nəfəri rus, digərləri ləzgi, mordvalı, ukraynalı, gürcü, tatardır.

Həmin şəxslərin 34 nəfəri Respublikanın müxtəlif rayonlarından, 4 nəfəri Bakının kəndlərindən, üç nəfəri Gəncədən, 99 nəfəri isə Bakı şəhərindəndir.

Bilgəh qocalar evinin ən yaşlı sakini 1893-cü il təvəllüdlü Əliyeva Gülüstan Xocalıdandır.

Bilgəh qəsəbəsi qocalar evində yaşayanlar arasında ailə quranlar da var.

Onlardan İskəndərov İlyas və Dadaşova Sevda, Cəfərov Cəfər, Ceyran xanım və digər beş ailəni qeyd etmək olar. Söhbət əsnasında məlum oldu ki, İlyas kişi də Cəfər kişi də əvvəlcə ailəli olublar. Evləri, uşaqları olub. Həyat yoldaşları ilə dolanmayıblar, boşanıblar. İlyas kişi operasiya olunub, bir ayağını kəsiblər. Yaşamaq ona çətin olduğundan qocalar evinə gəlib. Cəfər kişi isə övladı olmadığından 2 dəfə evlənib, 4 övladı olub. Qadını ilə söz-söhbətləri başlayıb. Evi ona verib. Qadın isə evi satıb, başqasına ərə gedib. Cəfər kişi evi olmadığından qocalar evinə gəlib. Qocalar evində Ceyran xanımla ailə qurub.

Buzovna qəsəbəsində 189 nəfər yaşayır. Onların 22-si rus, 8-i tatar, 4-ü yəhudi, qalanlar azərbaycanlıdır. Sakinlərin bir qismi ruhi xəstələr, bir hissəsi isə qocalardır.

Qocalar evində yaşayanlar arasında övladı olmayanlar, həyat yoldaşı rəhmətə gedəndən sonra gələnlər də var. Onları bacısının qardaşının oğlu gətirib, qocalar

evinə qoymuşlar. Məsələn, Salyan rayonundan Asya İsmayılova, Suraxanılı Əhməd İsmayılovun övladları yoxdur. Həyat yoldaşları rəhmətə gedəndən sonra tək qalmışlar. Yaşamaq onlar üçün çətinləşmişdir.

Xanlar rayonunun Qırıxlı (Qızılca) kəndində yerləşən «8 saylı ruhi əsəb təmayüllü internat evi»ndə yaşayanlar qadınlardır. 135 nəfərin 120 nəfəri ruhi xəstədir. Onlar arasında anadangəlmə və ya yaş həddi ilə əlaqədar əsəb pozğunluğu, ağıl zəifliyi olanlar, eplepsiyalı xəstələr də vardır.

İnternatın direktoru buranı «canlı qəbristanlıq» adlandırır. Burada əsasən azərbaycanlılar, ruslar, ermənilər, ləzgilər yaşayırlar. Onların bəzilərini övladları gətiriblər. Rəhmətə gedən qocaların isə bəziləri dövlət hesabına dəfn olunurlar. Ayrıca qəbristanlıqları var. Müəyyən şəxsləri isə ya övladları, yaxud qonşuları aparıb dəfn edirlər.

Bilgəh qocalar evinin sakinləri, 1-ci qrup əlil İlyas İskəndərov kövrək qəlbli insandır. «Ata» şerində yazır:

Ata bəxtim yaman yatıb,
Fələk gör məni hara atıb.
İndi qocalar evindəyəm,
Özüm də yaman gileyliyəm (15).

Əlbəttə, müxtəlif taleli insanlar müəyyən səbəblərdən qocalar evlərində keşməkeşli anları yaşasalar da, onlara hər cür qayğı, yardım, kömək olunsa da, ehtiyacları tam ödənilsə də, kövrək qəlbləri, kədərli gözləri həmişə yollara dikilir…

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində əlil və kimsəsizlərin, müharibə və əmək veteranlarının istifadəsində olan 10 internat və qocalar evi fəaliyyət göstərir. Hazırda 1000-dən çox vətəndaş bu müəssisələrdə tamamilə dövlət himayəsindədir.

1997-ci ildə əhalinin ən aztəminatlı təbəqəsi sayılan tənha, ahıl vətəndaşlara, əlillərə evlərində göstərilən sosial xidmətin təşkili işi yenidən qurulmuş, ölkənin indiki iqtisadi

vəzityyətində lüzumsuz olaraq artıq istifadə edilən xeyli dövlət vəsaitinə qənaət edilmişdir (10,13).

1997-ci ilin avqustundan respublikada orta aylıq pensiya məbləği bu dövrə qədərki 23 min manatdan 49 min manata çatdırılmışdır.

20 min nəfərdən artıq şəhid ailəsinə müxtəlif növ güzəştlər və imtiyazlar verilmişdir (10,5).

Dövlət təminatında yaşayan əlillərə, imkansızlara, kimsəsizlərə və s. hərtərəfli sosial-məişət xidməti təşkil olunan qoca və əlillər üçün internat evlərinin və pansionatların maddi-texniki bazasının yaxşılaşdırılması, burada yaşayanlara, müalicə olunanlara göstərilən tibbi və sosial-məişət xidmətinin səviyyəsinin yaxşılaşdırılması yönümündə son illərdə həyata keçirilmiş tədbirlər artıq müsbət nəticə verməkdədir (10,89).

Respublikada 1257 yerlik qoca və əlillər üçün internat evləri, 300 nəfərlik 2 pansionat, 200 yerlik gənc əlillərin əmək və istirahət evi fəaliyyət göstərir (cəmi 10 ədəd, 1757 çarpayılıq).

405 yerlik 2 ağıldankəm uşaqlar üçün, 652 yerlik 5 ruhi əsəb əlilləri üçün internat evləri fəaliyyət göstərir.

Tam dövlət təminatında yaşayan qoca və əlillərin ərzaq təminatını yaxşılaşdırmaq üçün hər ilin əvvəlində ümumi illik ərzaq ehtiyacı öyrənilərək respublikanın aidiyyatı təşkilatları qarşısında məsələ qaldırılır, daimi olaraq onun həyata keçirilməsi nəzərdə saxlanılır və qismən də olsa həllinə nail olunmuşdur.

Bu cür təşkilatlarda yaşayanların və müalicə olunanların istər qida məhsulları və istərsə də geyim-yataq əşyaları, ayaqqabı və s. ilə təchizatını tənzimləmək üçün Respublika Nazirlər Kabinetinin 21 noyabr 1994-cü ildə 402 saylı xüsusi qərarı ilə normativlər təsdiq olunmuşdur (10,91).

Gəncə, Xanlar, Buzovna, 9 saylı internat evi, Mərdəkan internat evləri, Bilgəhdəki müharibə və əmək

əlilləri üçün pansionat, Saray internat evi, Ramana Gənc Əlilləri Əmək və İstirahət evi dövlət himayəsindədir (10,93-94).

Hər il 580 nəfər pensiyaçı və əlil Mərdəkan müalicə pansionatında müalicə alırlar (10,96).

Respublikada 16750 nəfər tənha ahıl vətəndaşlara və əlillərə 143 nəfər aparıcı mütəxəssis və 2150 nəfərə sosial xidmət işçisi vasitəsilə rayon-şəhər ƏSMM tərəfindən evlərində sosial-məişət xidməti göstərilmişdir (10,100).

Hazırda respublikada 240 min nəfərlik əlil, o cümlədən 20 nəfərə yaxın Böyük Vətən Müharibəsi əlili, 6 min nəfərə yaxın torpaqlarımızı erməni təcavüzündən müdafiə edərkən əlil olmuşlar. 6500 nəfərə yaxın Çernobıl əlili, 137 min nəfərdən artıq ümumi səbəbdən əlil, 5 min nəfərə yaxın hərbi əlil, 33 min nəfərdən artıq uşaqlıqdan əlil vardır (10,104).

Əlillərin peşə qabiliyyətinin bərpası istiqamətində görülən işlərin nəticəsi olaraq 59 nəfər əlilin təhsil haqqı ödənilmiş və 185 nəfər əlilin müxtəlif peşə öyrənməsi üçün şərait yaradılmışdır. Bu məqsədlə 73,3 milyon manat vəsait xərclənmişdir (10,109).

Azərbaycanda Bakı şəhərində, Gəncədə, Şəkidə, Lənkəranda yerləşən uşaq evlərində 540 nəfər valideyn himayəsindən məhrum olmuş uşaq tərbiyə olunaraq dövlət qayğısı ilə təmin olunmuşdur. Belə ki, Bakıda yerləşən 3 uşaq evində 324, Gəncədə 110, Lənkəranda 173 və Şəkidə 98 nəfər uşaq dövlətin himayəsindədir. Bununla yanaşı Mərdəkan qəsəbəsində 2 №-li, Maştağa qəsəbəsində isə 1№-li, yetim və valideyn himayəsindən məhrum olan uşaqlar üçün təşkil olunmuş internat məktəblərində uşaqlar saxlanılır.

Göründüyü kimi təkcə 2002-ci ildə Azərbaycanda uşaq evləri və internat məktəbləri müəssisələrinin sayı 6, burada işləyənlərin sayı isə 267 nəfər idi.

Bu uşaqların 705 nəfəri uşaq evlərində, 540 nəfəri yetim və valideyn himayəsindən kənarda qalan uşaqlar üçün internat məktəblərində yerləşdirilmişlər.

Həmin müəssisələrdə 3186 yataq sahəsi, 1834 məşğələ otağı, 6 kitabxana, 6 yeməkxana, 2 emalatxana, 5 avtonəqliyyat, 3 idman zalı fəaliyyət göstərir, müəssisələrə dövlət büdcəsindən vəsait verilir (12).

Müstəqilliyimizin ilk illəri – 1991-1993-cü illər bütün Azərbaycan xalqı kimi, onun uşaqları üçün də çox fəlakətli oldu. Hələ 1988-ci ildən ərazi iddiaları ilə Azərbaycana təcavüz edən Ermənistan məhz həmin illərdə respublikamızda hakimiyyətsizlik, satqınlıq və özbaşınalıq şəraitindən istifadə edərək Azərbaycan torpaqlarının 20%-ni işğal edə bildi. Sayı bir milyon nəfərə çatan qaçqınlarımızın bir çoxu erməni silahlı qüvvələrinin soyqırımı siyasətinin qurbanı oldu ki, onların da arasında yaşlılar və qadınlarla yanaşı, uşaqların sayı da az deyildi. İşğal olunmuş ərazidə 300 min nəfərədək uşaq öz doğma evlərini, məktəblərini, uşaq bağçalarını tərk etməli oldular ki, onlardan da 79 min nəfəri 5 yaşdan aşağı olan uşaqlar idi. Təsəvvür edin ki, həmin azyaşlı uşaqlar çadırlarda, günün, yağışın altında özlərinə müvəqqəti sığınacaq tapdılar, onlardan bir çoxu öz valideynlərini itirərək yetim və kimsəsizlərə çevrildilər. 1994-cü ildə Prezidentin qaçqınlarla görüşü zamanı verdiyi tövsiyələrə uyğun olaraq, qaçqın düşərgələrindən 200-dən artıq xəstə və kimsəsiz uşaq respublika Səhiyyə Nazirliyi tərəfindən Bakıya gətirilərək nazirliyin Buzovna və Mərdəkandakı uşaq sanatoriyalarında yerləşdirildi, onların yaxşı yaşamaları və təhsil almaları üçün hər cür şərait yaradıldı (7,269).

1998-ci il mayın 19-da Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis Azərbaycanda uşaq hüquqlarının müdafiəsi haqqında qanun qəbul etdi (7,270).

1949-cu ildə Avstriyanın İmst şəhərində ilk dəfə «SOS uşaq kəndi»nin salınması ilə görkəmli humanist pedaqoq

Herman Qmayner tərəfindən əsası qoyulmuş «SOS Kinderdorf İnterneşnl» təşkilatı sonralar dünyanın 130-dan çox ölkəsində uşaq kəndləri yaratmaş, on minlərlə uşaq və yüzlərlə qadın bunlarda rahatlıq tapmışdır.

1997-ci ildə «SOS Kinderdorf İnterneşnl» təşkilatı ilə Azərbaycan Respublikası hökuməti arasında əldə olunmuş razılaşmaya əsasən ilk layihə olan «Bakı SOS Uşaq Kəndi»nin tikintisi üçün Bakının Xətai rayonu ərazisində 4,5 hektar sahə ayrılmış və əlaqələndirmə işləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılmışdı. 1999-cu il iyulun 16-da «SOS uşaq kəndləri – Azərbaycan assosiasiyası» yaradıldı.

Türkiyənin «Enka» şirkəti «Bakı SOS uşaq kəndi»nin tikintisinə başlamış və qısa müddətdə – bir il ərzində işi başa çatdırmışdır. Kəndin ərazisində Avropa standartlarına uyğun 12 ailə evi, uşaq bağçası və 6 digər yardımçı bina tikilmiş, onlar müasir mebel və avadanlıqla təchiz edilmişdir. Ailə evlərinin hər birində 8-10, ümumilikdə isə uşaq kəndində 100-dən artıq yetim, kimsəsiz uşağın yaşaması və tərbiyə olunması nəzərdə tutulmuşdur. 2000-ci il noyabrın 2-də «Bakı SOS uşaq kəndi» istifadəyə verildi (7,272).

Göründüyü kimi, əsrlərdən bəri Azərbaycan xalqının həyatında ağsaqqallar, ağbirçəklər, həmçinin uşaqlar mühüm rol oynamış, onlar sayılmış, seçilmiş, müdrikləşmiş və həmin ənənə nəsildən-nəslə ötürülərək davam etdirilmiş bu günümüzədək yaşamışdır. Lakin hazırda dövlət himayəsinə verilən bəzi valideynlər və azyaşlı uşaqlar ümumi əhalinin kiçik bir hissəsini təşkil edir. Danılmaz həqiqətdir ki, xalqımızın milli xüsusiyyətlərinə tamamilə yad olan və müxtəlif sosial-psixoloji mühitin yetişdirdiyi bu faktla az da olsa qarşılaşırıq.

# II FƏSİL.QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN AİLƏ-MƏİŞƏT MƏSƏLƏLƏRİ BARƏDƏ

XX əsr Azərbaycan xalqı üçün təzadlı və müxtəlifçalarlı olmuşdur. Belə ki. 1920-ci ildə 19 min kv.km. Azərbaycan torpağı qoparılıb Ermənistana verildi. Birinci dünya müharibəsi, xarici hərbi müdaxilə, vətəndaş müharibəsi, erməni-azərbaycanlı zidiyyətləri və azərbaycanlıların soyqırıma məruz qalmaları, 30-cu illərin repressiyası əhalinin 387 min nəfər, yaxud 16,6 faizi azalaraq 2339,2 min nəfərdən 1952,2 min nəfərə enməsi, Böyük Vətən müharibəsi illərində əhalinin sayının 568,4 min nəfər 17,4% azalaraq 1940-cı ildə 3274 min nəfərdən 1945-ci ilin əvvəllərində 2705,6 min nəfərə düşməsi, nəticədə yalnız 1955-ci ildə əhalinin sayının bərpa olunması faktdır. Bu sahədə 1948-1953-cü illərdə Ermənistandan qovulmuş 150 min nəfər azərbaycanlı da müəyyən rol oynadı.

İnsan şəxsiyyətinin mənəvi tərəqqisi, inkişafı, formalaşması barədə cəmiyyətin əldə etdiklərinin hamısı 1988-ci ildən başlayaraq Ermənistan dövlətinin xalqımıza və ölkəmizə qarşı elan etmədən başladığı işğalçılıq müharibəsi, Azərbaycanda, ailə-məişət münasibətlərinin xeyli pisləşməsinə səbəb oldu.

1988-89-cu illərdə Sovet İttifaqının dağılması dövründə Ermənistanda yaşayan 230 min azərbaycanlı həmin respublikadan qovuldu. 1990-cı ildə Orta Asiyadan və Qazaxıstandan milli münaqişə nəticəsində didərgin düşmüş 50 min nəfərdən artıq axısxa (məshəti) türkü də Azərbaycana pənah gətirdi.

1992-1993-cü illərdə isə Dağlıq Qarabağ ərazisi ilə yanaşı Azərbaycanın digər 7 rayonu – Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı, Ağdam, Füzuli, Cəbrayıl, yəni daha 20% Azərbaycan Respublikası ərazisi ermənilər tərəfindən işğal olundu.

Beləlilklə, Ermənistan ərazisindən qovulan azərbaycanlılar da daxil olmaqla bir milyon nəfərdən çox azərbaycanlı vətənində qaçqın və məcburi köçkün oldu. 20 min nəfər həlak oldu, 20 min nəfər yaralandı, 5040 nəfər əlil oldu, 5 mindən çox adam əsir, itkin düşdü, yaxud girov götürüldü.

1990-1994-cü illərdə Ermənistanın silahlı birləşmələri Azərbaycan torpaqlarına hücum edərək 14 rayon və 834 kənd daxil olmaqla 17300 kv.km. (20 faiz) ərazini zəbt etdi. 700 000 nəfərədək azərbaycanlı Dağlıq Qarabağ və ətraf ərazilərdəki daimi yaşayış yerlərini tərk etməyə məcbur oldu. Beləliklə, Ermənistan hərbi birləşmələri tərəfindən Azərbaycan torpaqlarının işğal edilməsi nəticəsində ölkəyə 60 milyard ABŞ dolları həcmində ziyan dəydi. Azərbaycan Respublikasında 1 milyondan çox qaçqın və məcburi köçkün, 188 540 ailə evsiz-eşiksiz qaldı, onlar keşməkeşli həyat tərzinə düçar oldular.

Məcburi köçkünlərin 54,15 faizi şəhərlərdə, 45,85 faizi kəndlərdə yaşayırlar. Məcburi köçkünlər arasında 16 yaşdan yuxarı olanlar 370 132 nəfərdir. Onların 31 938 nəfəri (8,6 faizi) ail, 44 374 nəfəri (12,0 faizi) natamam ali və xüsusi orta; 139 246 nəfəri (37,6 faizi) ümumi orta; 104 373 nəfəri (28,2 faizi) natamam orta təhsillidir.

Məcburi köçkünlərin 150 660 nəfəri (26,5 faizi) dövlət, kooperativ, ictimai, ailəvi və digər fərdi əmək fəaliyyətlidirlər. 109 279 nəfəri (19,2 faizi) pensiya; yardım alır. 38161 nəfəri (6,7 faizi) təqaüdçüdürlər. 99658 nəfəri (17,5 faizi) himayədə, 170 226 nəfəri (30,1 faizi) digər mənbələrdən olan vəsait hesabına yaşayırlar.

284 050 nəfər əmək qabiliyyətli yaşda olan məcburi köçkünün 96242 nəfəri (33,9 faizi) kənd təsərrüfatı işçiləri, 19 409 nəfəri (6,8 faizi) müəllimlər. 10 413 nəfəri (3,7 faizi) səhiyyə işçiləri, 13787 nəfəri (4,9 faizi) inşaatçılar, 4789 nəfəri (16,8 faizi) digər peşə sahibləri, 96 309 nəfəri (33,9 faizi) peşəsi olmayanlardır.

Məcburi köçkün qadınlar arasında 29 484 çoxuşaqlı qadın (54,3 faiz), 4253 nəfər şəhid anası (7,8 faiz), 16 948 (31,2 faiz) qadın ailə başçısı, 3595 (6,6 faiz) tənha qadın var. 207 380 nəfər 17 yaşadək yaşı olanlardır. Qızlar 114 229 (55,1 faiz), oğlanlar 93152 (44,9 faizi) nəfərdir (13).

1991-1992-ci illərdə hərbi əməliyyatlar geniş vüsət almağa başladı. Erməni silahlı birləşmələri ən müasir silahlardan istifadə edərək 1992-ci ilin fevral ayında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 800 nəfərin ölümü ilə nəticələnən Xocalı soyqırımını həyata keçirdi. 1992-ci ilin mayında isə bu hücumlar Şuşanın, sonra da Laçının süqutu ilə nəticələndi. Beləliklə, erməni silahlı qüvvələri Dağlıq Qarabağın ətrafındakı rayonların da işğalına başladı. BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 nömrəli qətnamələrində erməni silahlı birləşmələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması və qaçqınların öz doğma yerlərinə qaytarılması tələb olunsa da, bu sahədə beynəlxalq ictimaiyyətin səylərinə və çağırışlarına məhəl qoymayan erməni silahlı birləşmələri Azərbaycan rayonlarını işğal etməkdə davam etdi. 1993-cü ilin aprelindən başlayaraq bir neçə ay ərzində Kəlbəcər, Ağdam, Cərbayıl, Qubadlı, Füzuli, Zəngilan işğal olundu. Onu da qeyd etmək lazımdır ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti beynəlxalq ictimaiyyət tərəfindən pislənsə də, Ermənistan faktiki olaraq heç bir dövlət tərəfindən təcavüzkar kimi tanınmadı. Yalnız 1993-cü ilin aprel ayında Pakistanın Kəraçi şəhərində İslam Konfransı Təşkilatının 21-ci konfransında Ermənistanın təcavüzkar dövlət olduğu bəyan edildi.

Azərbaycan Respublikasının «Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Dövlət komissiyası»nın 2000-ci ildə hazırladığı statistik məlumatlarına əsasən, işğal olunmuş ərazilərdə 6000-ə yaxın kənd təsərrüfatı və sənaye obyekti, 102.000 yaşayış

evi, 4366 sosial-mədəni obyekt, 7000 ictimai bina, 693 orta məktəb, 855 məktəbəqədər müəssisə. 695 xəstəxana və digər tibb müəssisələri, 10 məscid, 160 körpü, 368 klub, 927 kitabxana, 85 musiqi məktəbi, 464 muzey və tarixi abidə, 6 dövlət teatrı dağıdıldı. 800 km.-lik dəmir yolu və avtomobil yolları, 15 min km elektrik və qaz xətləri, 2300 km.-lik regional əhəmiyyətli su kommunikasiya sistemləri sıradan çıxarıldı. İşğal olunmuş torpaqlarda 31 məscid, 9 tarixi saray, 1 milyon hektar kənd təsərrüfatı sahəsi, 250 min hektar meşə sahəsi, 200 paleontoloji, geoloji abidə erməni separatçılarının əlinə keçdi (7, 236-237).

Azərbaycanda 4514 şəhid ailəsi vardır. Yetim uşaqlar 4395, milli qəhrəmanlar 40 girovluqdan qayıdanlar 988 nəfərdir.

Qaçqınlar və məcburi köçkünlər arasında qış vaxtı istiliklə pis təmin olunan, yaşayış üçün münasib olmayan binalarda (inzibati binalar, məktəblər) yaşayanlar xəstəliklərə daha çox meyllidirlər. Şəhər yerlərinə nisbətən kəndlərdə mədə-bağırsaq xəstəliklərinə daha çox təsadüf olunur. Onlar arasında əsəb xəstəliklərinin yayılması, onların ağır həyat şəraitindən doğan gərginliyin nəticəsidir. Beynəlxalq qeyri-dövlət xeyriyyə təşkilatları bir sıra hallarda qaçqın və məcburi köçkünləri dərmanla təchiz edir.

Məcburi köçkün ailələri arasında sinir mənşəli xəstələr 4,7 faiz, malyariya – 4,5 faiz, vərəm – 1,1 faiz, qanazlığı – 9,4 faiz, daxili xəstəliklər – 16,9 faiz, şəkər – 1,8 faiz, hipertoniya 8,8 faiz, əsəb 4,9 faiz, qadın xəstəlikləri 12,7 faiz, sonsuzlıq – 1,5 faiz, stomatit – 8,8 faiz, ürək-damar – 7,2 faiz, digərləri – 18,4 faizdir.

Qaçqınlara və məcburi köçkünlərə dövlət tərəfindən vəsait verilir. Yerli, xarici, beynəlxalq təşkilatlar humanitar yardım göstərirlər.

Hazırda Ümumdünya Ərzaq Proqramı (ÜƏP) mütəmadi olaraq 200000 məcburi köçkünə yardımını davam etdirir ki, bu da məcburi köçkünlərin ümumi sayının 33

faizini və bütövlükdə ərzaq paylanan təşkilatlar tərəfindən məcburi köçkünlərin ümumi sayının 68 faizini təşkil edir. Həmin ərzaq alan adamlar Bakıdan kənarda ictimai binalarda və 12 çadır-qəsəbə düşərgələrində məskunlaşmışlar.

ÜƏP-dan ərzaq alan ailə təsərrüfatının 20 faizi tənha ailə başçısıdır, onlardan ailə başçısı qadın olanlar isə 60 faiz təşkil edir.

Həyat şəraiti onların insan potensialına mənfi təsir göstərir. Müəyyən ixtisasa malik olan mütəxəssislər işsizlikdən səriştələrini itirir və qeyri-fəal olmaq məcburiyyətində qalırlar. Bu həyat tərzi isə onlara mənfi cəhətdən ağır təsir göstərir.

Rayonlarda yerləşdirilən qaçqınlara və məcburi köçkünlərə kənd təsərrüfatı işləri aparmaq üçün lazımi şəraitin yaradılması və bu məqsədlə görülən tədbirlər müsbət nəticə verməyə başlayıb.

Qeyd etmək lazımdır ki, onların bəzilərinin uşaqları ya məktəbə getmir, yaxud da vaxtaşırı gedirlər. Məktəblərin bəziləri çox basırıq olur, müxtəlif təhsil səviyyəsi olan şagirdlər eyni qrupa daxil edilirlər.

Azərbaycanda işğal olunmuş ərazilərdə və ona bitişik zonalarda 616 ümumtəhsil məktəbi, 234 uşaq bağçası 35 məktəbdənkənar tərbiyə müəssisəsi, 5 orta ixtisas məktəbi, 12 TİM, 1 ali məktəb və 3 ali məktəb filialı qalmışdır. Təqribən respublikanın təhsil sisteminə 1,5 mld. ABŞ dolları dəyərində maddi ziyan vurulmuşdur. Azərbaycanda 130 minə yaxın məktəbli və tələbə, 20 minə yaxın təhsil işçisi, on minlərlə məktəbyaşlı uşaq, minlərlə maarif işçisi öz doğma ev-eşiyindən, təhsildən aralanaraq işsiz qalmışdır. Lakin qaçqın rayonlarının təhsil sisteminin qorunub saxlanması, onların fəaliyyətinin təmin olunması, qaçqın və məcburi köçkünlərin sıx şəkildə məskunlaşdıqları yerlərdə həmin rayonların müstəqil məktəblərinin təşkili üçün xeyli iş görülmüşdür.

Çadır düşərgələrində fin evləri və vaqonlarda, həmçinin Bakı, Gəncə, Sumqayıt və digər şəhər, rayonlarda 700-dən artıq müstəqil qaçqın məktəbləri fəaliyyət göstərir. Respublikanın 48 rayonlarında təşkil edilmiş həmin məktəblərdə 85 452 qaçqın şagird təhsilə cəlb olunmuşdur. Məcburi köçkünlərin yerləşdikləri düşərgələrdə uşaq bağçaları açılmışdır.

Respublikanın 51 rayonunda müvəqqəti, məskunlaşmış məcburi köçkün ailələrinə tibbi xidmətlər göstərilir, onların ailələrinin, uşaq bağçalarının, digər zəruri obyektlərin qış mövsümü ərzində yanacağa, digər zəruri avadanlıqlara olan təlabatları da qəbul edilmiş normalara əsasən müəyyənləşdirilir.

Qaçqın və məcburi köçkünlərin şəhər mühitində yaşaması xüsusi problem doğurur. Belə ki, kənddə yaşamış bu adamların şəhər həyatına alışması prosesi əzablı keçir. Bundan başqa əməyə qabil yaşda olanların böyük bir hissəsi kənd təsərrüfatı işçisidir ki, bu da daha bir problem yaradır.

Qaçqınların və məcburi köçkünlərin gəliri az olan ailələrdə gəlir mənbəyinin əsasını müxtəlif birdəfəlik vəsaitlər, təqaüd, təsadüfi günəmuzd iş və s. təşkil edir.

Məcburi köçkünlərin 18,7 faizi çadırlarda, 19,1 faizi vaqonlarda, 23,3 faizi məktəblərdə, 16,6 faizi yataqxanalarda, 1,4 faizi sanatoriya, pioner düşərgələri və ya digər yerlərdə məskunlaşmışlar. 20,9 faiz ailə isə ev tutmuş, qohumlarının, dostlarının yanında yaşayırlar. Ancaq 2,9 faiz ailə ev tikdirmiş və ya almış, özünün həyat şəraitini qurmuşdur.

Çadır şəhərciklərində, (əsasən Sabirabad, Saatlı, Biləsuvar, Bərdə, Ağdam, Ağcəbədi) yaşayan ailələrdəki uşaqlardan 5 yaşadək olanlar, 8 067, 6-15 yaşlılar – 13995 nəfərdirlər.

Fin qəsəbələrində (Sabirabad, Saatlı, Ağcəbədi, Bərdə, Ağdam, İmişli, Yevlax, Goranboy, Füzuli, Şəki, Laçın,

Dəvəçi, Mingəçevir) 5 yaşadək olan uşaqların sayı 5 367 nəfər, 6-15 yaşlılar 7 088 nəfərdir.

Dəmiryol üzərində olan vaqon evlərdə məskunlaşan məcbüri köçkünlərin (İmişli, Bərdə, Saatlı rayonları) 5 yaşadək olanları 1 355, 6-15 yaşlılar 1 929 nəfərdir.

Məcburi köçkün ailələrində yaşayan uşaqların 2,2 faizi xəstə, 9,1 faizi əlildir. Demək olar ki, bütün əlillərin 31,4 faizi 1-ci dərəcəli, 60,5 faizi – 2-ci dərəcəli, 8,1 faizi – 3-cü dərəcəlidirlər. 13,1 faiz ailədə isə xəstə olan, zədə alan fiziki şikəst olan, psixoloji baxımdan stress keçirən üzvlər yaşayırlar.

Məcburi köçkün ailələrində ailənin bir nəfər üzvünə düşən orta aylıq gəlir 39000 manatdır.

Qaçqınlar və məcburi köçkünlərin işləyən hissəsində (ümumi əhalinin 31 faizi) gəlir – 123 529 manatdır.

Qaçqın və məcburi köçkün ailələrində yardımlar da nəzərə alınmaqla adambaşına düşən gəlir 73520 manatdan 28 200 manat arasındadır. Onların 76 faizinin gündəlik gəlirləri aşağı səviyyədədir. Odur ki, həmin ailələrə Azərbaycan hökumətinin köməkliyi, beynəlxalq təşkilatların humanitar yardımları iqtsiadi cəhətdən dayaq olur. Hökumətin adambaşına aylıq yardımı 20 000 manat təşkil edir. Həmçinin uşaqlı ailələrdə hər uşağa dövlət hər ay pul verir.

Qaçqınlar və məcburi köçkünlər kommunal xidmətlərdən elektrik, qaz, su və həmçinin vergilərdən azad olunmuşlar.

Hesablamalar göstərir ki, orta ailələrdə sosial xərclər 53 000 manat təşkil edir.

Qaçqın və məcburi köçkün ailələrinin 60,4 faizində müxtəlif yaş səviyyəli məktəblilər vardır.

Onların təhsili ilə məşğul olan müəllimlər isə qaçqınlar arasında olan ümumi mütəxəssislərin 30,8 faizini təşkil edirlər.

Əlbəttə, məcburi köçkünlüyün ağrılarını çadırlarda yaşayanlar bilirlər.

Xalq arasında deyirlər: «Söyüd gülü bədbəxtlik rəmzi kimi yozulur». Yəqin bu ağac tez böyüyərək kölgə salmasına görə onu becərirlər. Onların bir qismi kiçik həyətində tərəvəz məhsulları əkir. Əksəriyyət xırda alverlə məşğuldurlar. Vaqonlarda yaşayanların vəziyyəti çadırdakılardan ağırdır. Yayın istisində vaqonlar çox isti olur.

Məcburi köçkünlərin məskunlaşdığı çadır şəhərciklərində yaşayan əhalini işğal olunmuş torpaqların geri qaytarılması, yaşayış və işsizlik problemləri xüsusi narahat edir. Həmin şəxslər iş yerlərinin yaradılmasını, əhalinin işlə təmin olunmasını, onlara edilən yardımdan üstün tuturlar. Əlbəttə, mövsümi əkin işləri, kiçik piştaxtalar məcburi köçkünlərin, qismən iş yerləridir.

Azərbaycan dövlətinin əsas siyasəti qaçqın və məcburi köçkünləri daimi yaşayış yerlərinə, doğma yurdlarına qaytarmaqdan ibarətdir.

Qaçqınların və məcburi köçkünlərin reabilitasiyası üçün sülhün bərqərar olması əsas şərtdir.

Azərbaycan xalqının qismətinə nəsib olmuş qaçqınlığa məcburi köçkünlük də əlavə olundu. Bu hal demoqrafik vəziyyətə təsir etdiyi kimi ailə-məişət münasibətlərində sosial-iqtisadi vəziyyətə də təsirini göstərdi.

Azərbaycanda bu problem yarandıqdan sonra beynəlxalq humanitar təşkilatlar burada işləməyə gəldilər. Beləliklə, BMT-nin qurumları, ÜƏP, YUNİSEF, ABŞ-ın qeyri-hökumət təşkilatları, İran, Türkiyənin qeyri-hökumət təşkilatları, Ərəb ölkələri, o cümlədən Avropa ölkəlrindən olan bu təşkilatlar qaçqın və məcburi köçkünlərə xeyli kömək etdilər. Avropa Birliyinin vəsaiti hesabına EKO təşkilatı Azərbaycanda bu münaqişənin yarandığı vaxtdan 102 milyon dollara qədər yardım göstəribdir.

Qaçqınlar və məcburi köçkünlər respublikanın 58 şəhər və rayonunda çadır düşərgələrində, yığma evlərdən ibarət qəsəbələrdə, yeraltı qazmalarda, sanatoriyalarda, yük vaqonlarında, yarımçıq evlərdə yaşayırlar. Onların yemək xərci ildə 96 milyard manat təşkil edir. Qaçqınlar və məcburi köçkünlər əmlak və gəlir vergilərindən azaddırlar. Təhsil, səhiyyə və digər sahələrdə onlara güzəştlər göstərilir.

Məcburi köçkünlərin sosial müdafiəsini gücləndirmək məqsədilə onlara yemək xərci üçün verilən aylıq müavinət 2000-ci il yanvarın 1-dən 3,5 dəfə artırılmışdır.

Məcburi köçkünlərin mənzil-məişət şəraitini yaxşılaşdırmaq, müvafiq sosial infrastrukturu yaratmaq, iş yerləri açmaq məqsədi ilə 1999-cu ilin dekabr ayında məcburi köçkünlərin sosial inkişaf fondu yaradılmışdır.

17 fevral 1999-cu il tarixə Azərbaycan Prezidentinin imzaladığı «Məcburi köçkünlərin sosial mudafiəsinin gücləndirilməsi haqqında» sərəncamda məcburi köçkünlərə yemək xərci üçün verilən aylıq müavinət 1999-cu il yanvarın 1-dən etibarən müəyyən edilmişdir.

Həmçinin qış mövsümü ilə əlaqədar maye yanacağı ödəmək üçün 1883980 min (bir milyard səkkiz yüz səksən üç milyon doqquz yüz səksən min) manat vəsait ayrılmışdır.

Çadır şəhərciklərində məktəblər, doğum evi, tibb məntəqəsi, köçkün toylarını keçirmək üçün şadlıq evləri tikilib.

Əlbəttə, qaçqınların və məcburi köçkünlərin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə Azərbaycan hökuməti müxtəlif vasitələrə əl atır. 2000-ci ildə qaçqınlara 2 milyard manatdan yuxarı yardım edilmişdir. Həm dövlət, həm də qeyri-dövlət təşkilatları da bu sahədə xeyli iş görürlər.

Bir məsələni də diqqətdən qaçırmaq olmaz ki, qaçqınların bir qisminin toxuculuq istehsal müəssisələri, fermer təsərrüfatları vardır. Onların bir hissəsi tərəvəz məhsulları əkirlər. Bir qrup ailələri isə özlərinin istehsal

etdikləri məhsulları, iqtisadi cəhətdən tənzim edirlər. Məsələn, Laçın, Kəlbəcər, Xocavənd və digər ərazilərdən olan qaçqınlar özlərini ərzaqla təmin edirlər. Dövlət və qeyri-dövlət təşkilatları aqrar-sənaye sahələrinin, sənaye müəssisələrində qarşılaşdıqları problemlərin həllində onlara kömək edirlər.

Qaçqınlar arasında xırda biznesi inkişaf etdirmələri üçün də müəyyən işlər görülür.

Torpaqlardan istifadə edilməsi üçün rayonlara kreditlər də verirlər. Qaçqınların sosial-iqtisadi cəhətdən təmin olunmasında Azərbaycan Neft Şirkəti, Gömrük işçiləri, Prokurorluq, Daxili İşlər Nazirliyi, Ali məhkəmə. Ədliyyə Nazirliyi, Su təsərrüfatı konserni, yol şirkəti, təhsil sahələri də müəyyən rol oynayırlar.

«Humanitar yardımdan inkişafa doğru» mövzusunda 1999-cu ilin mayında keçirilən seminarda Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə dövlət komitəsinin sədri Ə.Həsənov qeyd etmişdi ki, 50-dən çox beynəlxalq humanitar təşkilat Azərbaycan qaçqınlarına və məcburi köçkünlərinə yardım göstərir.

Təkcə 1993-cü ildən 1998-ci ilə kimi Ümumdünya Ərzaq Proqramı tərəfindən 32 milyon ABŞ dolları məbləğində humanitar yardım göstərilmişdir.

1998-ci ildən ərzaq yardımı 40% azalmışdır.

Beynəlxalq humanitar təşkilatın vəsaiti hesabına respublikanın rayonlarında 14 çadır düşərgəsi və qurma evlərdən ibarət 17 qəsəbə salınmışdır. 55000 məcburi köçkün 7 min müvəqqəti yaşayış evlərində məskunlaşmışdır.

Məcburi köçkünlərin sosial təminatını ödəmək məqsədilə onlara transformator, su nasosları, naqil, kabel, şifer, şüşə, kirəqaz paylanmışdır.

Respublika üzrə 1650 obyektdə məcburi köçkünlər məskunlaşıblar. Onlardan 450 obyekt Bakıda yerləşir.

Ümumiyyətlə, bir neçə ilin rəqəmləri ilə fikrimizi dəqiqləşdirə bilərik. Məsələn, 1998-ci ildə Qaçqınlar

Komitəsinin büdcəsi 60 mld. manat, 1999-cu ildə 110 mld. manat, 2000-ci ildə isə 148 mld. manat olmuşdur.

Köçkünlərin bir qisminə fərdi qaydada yardım ödənilir.

Azərbaycanda yaşayan 700 min məcburi köçkünün yalnız 300 mini ərzaq yardımı ilə əhatə olunmuşdur və beynəlxalq normaya uyğun olaraq adambaşına ayda 20 kq ərzaq nəzərdə tutulursa, bu insanlara beynəlxalq humanitar təşkilatlar tərəfindən hazırda cəmi 3-4 kiloqram ərzaq verilir.

Qaçqınlar və məcburi köçkünlər arasında işsizlik problemi mövcuddur. 300 min nəfər əmək qabiliyyətli məcburi köçkünün 200 min nəfəri işsizdir və ya daimi işlə təmin olunmamışdır.

Qaçqınlara və məcburi köçkünlərə səhiyyə və təhsil xidməti, onların daha əlverişli yaşayış sahələri ilə təmin olunması, digər sosial problemlərin həlli sahəsində də çətinliklər mövcuddur. Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı dövlət proqramı müvəffəqiyyətlə yerinə yetirilir.

Bu məqsədlə də 1999-cu il mayın 5-də Bakıda keçirilən beynəlxalq seminarda Azərbaycan hökuməti «Humanitar yardımdan inkişafa doğru» strategiyasını bəyan etmişdir.

2000-ci il mayın 18-də Azərbaycanda qaçqın və məcburi köçkünlərin problemlərinə həsr olunmuş Beynəlxalq konfransda Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev beynəlxalq təşkilatlara müraciəti ilə respublikada qaçqınlan və məcburi köçkünlərin sosial problemlərinin həlli istiqamətinldə yeni müsbət addımların təməlini qoydu.

Azərbaycanda çalışan beynəlxalq humanitar təşkilatlar artıq öz proqramlarında dəyişikliklər etmiş, iş yerlərinin yaradılması, gəlir əldə edilməsi, kiçik biznesin inkişafı, kənd təsərrüfatı və s. layihələrin icrasına

başlamışlar. Uzunmüddətli inkişaf proqramları artıq öz müsbət nəticələrini verməkdədir.

Hökumət tərəfindən də bu istiqamətdə müəyyən tədbirlər həyata keçirilir. Kənd təsərrüfatı ilə məşğul olan məcburi köçkünlərə müvəqqəti istifadə üçün 60 min hektar torpaq sahəsi ayrılmış, məcburi köçkünlərin daxil olduqları 1200-dən çox fermer təsərrüfatı yaradılmışdır. Bu təsərrüfatlarda 46 min nəfərdən çox məcburi köçkün çalışır. Ölkə prezidentinin fərmanı ilə «Sosial İnkişaf Fondu» yaradılmışdır.

Azərbaycan hökuməti ilə Dünya Bankı arasında 10 milyon ABŞ dolları məbləğində imzalanmış müqavilənin də əsas məqsədi məcburi köçkünlərin sosial və məişət şəraitinin yaxşılaşdırılmasından və iş yerlərinin açılmasından ibarətdir.

«Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə «Dövlət proqramı» qaçqınların və məcburi köçkünlərin hüquqlarının qorunması, məskunlaşması reabilitasiyası, repatriasiyası, sosial müdafiəsi və s. istiqamətdə ardıcıl tədbirlər görmək, onlarla aparılan kütləvi mədəni işlərin səviyyəsini yüksəltmək, bu problemlə məşğul olan dövlət orqanlarının fəaliyyətini güclən»dirmək məqsədi ilə Azərbaycan Respublikası prezidentinin 1998-ci il 17 sentyabr tarixli 895 nömrəli sərəncamı ilə təsdiq olunmuş 5 bölmə, 52 maddədən ibarətdir.

Azərbaycanda 8438 Qarabağ müharibəsi əlili, 72951 Qarabağ müharibəsi veteranı vardır. 300-dək əlil və şəhid ailəsi nazirlik tərəfindən müasir mənzillərlə təmin olunmuşdur. Bu iş hər il davam etdirilir. 796 ədəd «Oka» markalı avtomobil Qarabağ müharibəsi və Böyük Vətən müharibəsi əlillərinə pulsuz verilmişdir.

Ümumiyyətlə, respublikamızda sosial problemlərin həlli daim dövlətin nəzarətindədir və əhalinin az təminatlı təbəqələrinə qayğı ilbəil artır. Belə ki, 2000-ci ildə sosial təminat xərcləri üçün dövlət büdcəsində 176 milyard manat

ayrılmışdısa, 2001-ci ildə bu rəqəm 220 milyard manatdır, yəni təqribən 25 faiz artıbdır. Azərbaycan Prezidenti tərəfindən əhalinin sosial güzəranının yaxşılaşdırılması məsələləri ilə bağlı 30-a yaxın fərman və sərəncam imzalanmışdır. 2002-ci ilin yayında Azərbaycanın müxtəlif bölgələrində yaşayan məcburi köçkünlərlə görüşdüm. Əlbəttə, onların sosial-iqtisadi vəziyyətini daha yaxından öyrəndim və müxtəlif sosial qruplu, yaş səviyyəli şəxslərlə söhbət etdim. Onların bir məqsədləri var, torpaqlarına qayıtmaq, öz yurdlarını isindirmək. İstər-istəməz belə qənaətə gəldim ki, insanlığın nə qəribəlikləri varmış. İlahi, öz doğma vətənində də özünü qərib sayırmış bu insanlar. Heç bir qayğı, heç bir nəvaziş onlara öz ocaqlarının istiliyini əvəz etmir. Goranboy rayonunun dağlıq və dağətəyi ərazilərində yaşayan məcburi köçkünlərlə söhbət əsnasında eşitdiyim bayatılar, bu fikriə gəlməyimə heç bir şübhə yeri qoymadı:

Bu dağlar uzun dağlar,
Getdikcə uzun dağlar,
Elə ki, boylanıram,
Görünmür bizim dağlar.

Keytinin boz dağları,
Tutubdu toz dağları.
Əgər torpaq qayıtsa,
Aşaram tez dağları.

Eləmi Vətən sarı,
Geyməyə kətan sarı.
Mən ölsəm qərib yerdə,
Könlüm vətənə sarı.

Dağlara binə gəlləm,
Gedərəm yenə gəlləm.
Bir də Vətəni görsəm,
İmana dinə gəlləm

Fələyin qəhri mənə,
Qəzəvi-qəhri mənə,
Əlində qəm piyaləsi
İçdirir zəhr mənə.

Ana, məni fağır ağla,
Fağır de, fağır ağla,
Müşkül işin düşəndə,
Adını çağır ağla.

Mən aşıq vərəm bağlar,
Gülün yox dərən bağlar.

Ağlaram ağlar kimi,
Dərdim var dağlar kimi,

Ruzigar belə olsa,
Ürəyin vərəm bağlar.
Xəzəl olub tökülərəm
Viranə bağlar kimi.

Mən aşıq gül bağda,
Bülbül bağda, gül bağda,
Sənsiz bağa girmərəm
Xəzəl olsa gül bağda (15).

Azərbaycanda 800 yaşayış məntəqəsindən gələn insanların hər birinin özünəməxsus ənənəsi, ləhcəsi, həyat tərzi, təhsil səviyyəsi var idi. Ancaq bu gün bunların hamısı itirilir. Sağlamlıq nöqteyi-nəzərdən bu insanların geni pozulur.

Məlumdur ki, 1995-ci ildə Azərbaycanda qaçqınlar və məcburi köçkünlərin ailələrinin sayı 202869, 1996-cı ildə 193 885, 1997-ci ildə 196 508, 1998-ci ildə 188011, 1999-cu ildə 188678, 2000-ci ildə 192051, 2001-ci ildə 190676 olmuşdur, o cümlədən Naxçıvan MR-sı ərazisində 1995-ci ildə 1327, 2000-ci ildə 1318, 2001-ci ildə 1315, Bakı şəhərində isə 1995-ci ildə 60010, 1996-cı ildə 52089, 2000-ci ildə 55757, 2001-ci ildə 56993 ailə mövcud idi. Digər ailələr isə respublika tabeli şəhərlər və rayonlarda məskunlaşmışlar (1,317).

2002-ci ildə Azərbaycanda qaçqınların və məcburi köçkünlərin sayı 1 milyon nəfər idi. Ümumilikdə götürüldükdə Azərbaycanda 211,2 min nəfər qaçqın, o cümlədən kişilər 97,2 min nəfər, qadınlar 114,0 min nəfər, məcburi köçkünlər 572,0 min nəfər-kişilər 268,1 nəfər, qadınlar 303,9 min nəfər, həmçinin Ermənistanla həmsərhəd rayonlardan olan 216,8 min nəfər məcburi köçkünlərdir.

Ermənistanla həmsərhəd rayonlardan olan məcburi köçkünlərin ailələrinin sayı nəzərə alınmaqla Azərbaycanda

qaçqınların və məcburi köçkünlərin ailələrinin sayı 242 mindir (1,313).

Bu gün xüsusi qayğıya ehtiyacı olan qaçqınların və məcburi köçkünlərin yaşayışı daim dövlətin diqqət mərkəzindədir. Onların minimum həyat səviyyəsini təmin etmək və ehtiyaclarını ödəmək üçün dövlət lazımi maliyyə vəsaiti ayırır və köməklik göstərir. Onların problemlərini sistemli şəkildə həll etmək və sosial müdafiəsini gücləndirmək məqsədilə qəbul olunmuş Dövlət Proqramına uyğun olaraq 1998-2001-ci illərdə bir sıra rayonlarda (Füzuli, Bərdə, Ağdam, Tərtər və s.) yaşayış məntəqələrinin salınması, infrastrukturun yenidən qurulması, kommunikasiya xətlərinin, məktəblərin, tibb məntəqələrinin bərpası, təsərrüfatla məşğul olmaq üçün əkin sahələrinin ayrılması, yeni iş yerlərinin yaradılması istiqamətində çoxlu iş görülmüşdür.

Qaçqınların və məcburi köçkünlərin mənzil-kommunal şəraitini yaxşılaşdırmaq və məşğulluğunu artırmaq məqsədilə Azərbaycan Respublikasında Dünya Bankının, digər beynəlxalq və qeyri-hökumət və kredit təşkilatlarının maliyyə dəstəyi əsasında Sosial İnkişaf Fondu (1999-cu il 6 dekabr) yaradılmışdır. Bu fondun vəsaiti hesabına artıq məcburi köçkünlər məskunlaşmış kəndlərin sosial infrastrukturun bərpasına yönəldilmiş bir sıra mikrolayihələr həyata keçirilmişdir.

Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların, Ağdam və Füzuli rayonlarından olan məcburi köçkünlərin bir qisminin məskunlaşdırılması məsələləri ilə əlaqədar olaraq Azərbaycan Respublikası Prezidentinin 22 avqust və 7 sentyabr 2001-ci il tarixli fərmanları respublikanın əlaqədar təşkilatları qarşısında qaçqın və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı təxirəsalınmaz mühüm vəzifələr qoyur (7,152).

2004-cü il iyulun 1-də Azərbaycan Respublikası Prezidenti «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında sərancam vermişdir (30).

Əlbəttə, qaçqın və məcburi köçkün problemi həmişə ölkənin çox mühüm məsələsidir. Qeyd etdiyiniz yeni dövlət proqramı üç bölmədən, 41 maddədən ibarətdir. Həmin sənəd ölkədə qaçqın və məcburi köçkün problemini kompleks idarə etməyə imkan verir. Bu, problemlə məşğul olmaq üçün hüquqi baza yaradır. Həmin vacib məsələlərlə bağlı bir sıra fərmanlar, sərəncam və qərarlar verilib. Lakin bütün bu sənədlər ayrı-ayrı problemlərin fərdi qaydada həllini nəzərdə tutur. Yeni dövlət proqramı isə qaçqın və məcburi köçkünlərin sosial-məişət problemlərini bütövlükdə idarə etməyə, onların icrası ilə ciddi məşğul olmağa imkan yaradır. Sənəddə bütün aidiyyatı orqanların – nazirliklərin komitə və şirkətlərin, həmçinin hökumətin qarşısında çox mühüm tapşırıqlar qoyulub.

Sərəncama əsasən qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət proqramı təsdiq olunub, həmçinin 1992-1998-ci illərdə müvəqqəti məskunlaşdıqları ictimai binalardan, mənzillərdən, torpaq sahələrindən və digər obyektlərdən çıxarılması hallarının yolverilməz olması bildirilib. Qaçqın və məcburi köçkünlərin işlə təmin olunması və təhsil haqqının ödənilməsində güzəştlərin verilməsi məsələlərində onlara lazımi kömək edilməsi, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Dövlət Proqramının icrasını təmin etmək üçün lazımi tədbirlər görməsi nəzərdə tutulub. Proqramda əksini tapan məsələlərdən biri də odur ki, Azərbaycanda görüləcək tədbirlərin nəticəsində heç bir çadır şəhərciyi qalmayacaq və onların əvəzində yeni, müasir standartlara cavab verən qəsəbələr salınacaq, yeni evlər tikiləcək.

İyunun 1-də imzalanan yeni sənəd isə qaçqın və məcburi köçkünlərin mənzil məişət şəraitinin kökündən yaxşılaşdırılması, onlar üçün iş yerlərinin açılması və digər sosial problemlərin kompleks həllini vacib sayır.

Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov mətbuat konfransındakı çıxışında demişdir ki, 1998-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin sərəncamı ilə təsdiqlənmiş və qaçqın, məcburi köçkünlərin sosial problemlərini tənzimləyən Dövlət Proqramı mövcud idi. Ötən illər ərzində Dövlət proqramının, demək olar ki, bütün müddəalarının icrası başa çatdığından yeni bir proqramın qəbuluna böyük ehtiyac vardı. Bunu nəzərə alaraq, Dövlətqaçqınkom tərəfindən hazırlanmış yeni proqram dövlətimizin başçısına təqdim edilib və təsdiqlənib.

Proqramda bütün çadır şəhərciklərinin, eləcə də istismar müddəti başa çatmış 16 fin tipli qəsəbənin ləğvi, məktəblərdə yerləşdirilən 6 min köçkün ailəsinin də yaşayış evləri tikildikcə tədricən yeni qəsəbələrə köçürüləcəyi nəzərdə tutulur.

Böyük qayıdış proqramının hazırlanması da qeyd olunur. Çünki işğal altında olan torpaqların qaytarılması labüddür.

Bu proqrama beynəlxalq maliyyə qurumları, BMT agentlikləri, beynəlxalq və yerli humanitar təşkilatların iştirakı və maliyyə dəstəyi ilə Böyük Repatrioasiya (Böyük Qayıdış) proqramının hazırlanması kimi çox mühüm bənd salınıb.

Dövlət Proqramının digər bəndləri də qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətindədir.(30).

Əlbəttə, Azərbaycan qaçqınların sosial-iqtisadi vəziyyəti ilə əlaqədar çox ciddi problerlə üzləşir. Əvvəla, əsasən kənd təsərrüfatı ilə məşğul olan qaçqın və məcburi köçkünlərin şəhər həyatında yaşaması, azərbaycanlı ailəsinə məxsus funksiyaların pozulmasına, maddi-təsərrüfat

həyatının qeyri-nizam inkişafına səbəb olur. Ailənin istər artım, istər təsərrüfat, istərsə də tərbiyə funksiyasında yaranan qeyri-normallıqlar ümumi Azərbaycan xalqının həyat tərzinə mənfi təsir göstərir.

Qaçqınlıq və məcburi köçkünlük Azərbaycan ailələrində həlli vacib olan bir problemdir. Ailələrin qarşısına çıxan çətinliklər ümumi Azərbaycan probleminə çevrilmişdir. Hazırda qaçqın və məcburi köçkünlərin ailəsi Azərbaycan dövlətinin diqqət mərkəzində durur. Çünki illərdən bəri olan yeni həyat tərzi, məişətlərində həmin həyat tərzinin qanunauyğunluqlarının formalaşmasına səbəb olub.

Bu bir həqiqətdir ki, Azərbaycanda dövlət müstəqilliyinin bərpası və yeni dövlətçiliyin təşəkkül tapması prosesi digər sahələrdə olduğu kimi ailə-məşiət münasibətlərinə də təsir edir. Bugünün sosial-iqtisadi gerçəklikləri, bazar iqtisadiyyatının yaradılması, dövlətin iqtisadi və siyasi əsaslarının dəyişdirilməsi kimi faktorlar ailələrin bütün funksiyalarına təsir edir.

# NƏTİCƏ

İnsan şəxsiyyətinin mənəvi tərəqqisi, inkişafı və formalaşması barədə cəmiyyətin əldə etdiklərinin hamısı ailədə öz əksini tapır.

SSRİ-nin dağılmasından sonra yaranmış müstəqil Azərbaycan Respublikasında bazar iqtisadiyyatı ailədə də əksini tapdı. Yenidən müstəqilliyini qazanan Azərbaycanda artıq yeni siyasi, sosial-iqtisadi münasibətlərin əsası qoyuldu və bu əsas üzərində azərbaycanlı ailəsi də formalaşmağa başladı.

Azərbaycanda 1925-ci ildə 347411, 1989-cu ildə 1381409, 1999-cu ildə isə 1687582 ailə mövcud idi.

Azərbaycanda 2000-ci ildə doğum əhalinin hər 1000 nəfərinə hesabı ilə 15 nəfər, ölüm isə 6 nəfər təşkil etmişdir.

Doğumun səviyyəsinə nikah da əhəmiyyətli dərəcədə təsir göstərir. Respublikada orta hesabla təxminən 57 min nikah bağlanır və 8 min nikah pozulur. Fertil (nəsilvermə qabiliyyətinə malik) yaşda olan qadınların sayı 2 milyon 311 min nəfərdir.

1988-ci ildən başlarayaq baş vermiş hadisələr Azərbaycanın demoqrafik vəziyyətinə xeyli təsir göstərmişdir. Ermənilərin təcavüzü Azərbaycana çoxsaylı insan tələfatı ilə yanaşı, yarıdan çoxu qocalardan və uşaqlardan ibarət olan 1 milyon qaçqın və məcburi köçkün gətirmişdir ki, onların da xeyli hissəsi çadırlarda və yaşayış üçün yararlı olmayan yerlərdə yaşayırlar.

Azərbaycanda əhalinin təhsil səviyyəsi də xeyli artmışdır.

2000-ci ildə Azərbaycanda 15 yaşdan yuxarı əhalinin savadlılıq səviyyəsi 98,8 % idi.

Azərbaycanda sənaye sahəsində, əsaslı tikinti sahəsində, nəqliyyat, ticarət və xidmət sahələrində xeyli irəliləyiş əldə edilib.

Hazırda Azərbaycanın kənd rayonlarında təsərrüfat müstəqilliyi üçün şəraitin yaranması ailə üzvlərinin müstəqil yaşamasını təmin edir. Kəndlərdə hər bir ailənin şəxsi həyətyanı təsərrüfatında, yaxud əlavə torpaq sahəsində gənc ailələrin ev tikdirmək imkanı olduğundan yeni evlənən ailələr üçün şərait vardır.

Müasir ailələrdə müxtəlif sosial peşə tərkibli mütəxəssislər və şəxslər yaşayırlar. Ona görə də cəmiyyətdə gedən ictimai-iqtisadi dəyişikliklər ailələrə də təsirini göstərir. Ailənin əzəli funksiyalarından biri də onun təsərrüfat özəyi olmasıdır.

Təsərrüfat-məişət həyatında ailənin hər bir üzvünün maddi cəhətdən təmin olunması, onların ümumi qayğılarını, ev işləri, təsərrüfat işləri, üzvlər arasında əmək bölgüsü və s. kimi məsələlər əsaslı yer tutur.

Ailənin iqtisadi funksiyası onun maddi əsasını yaradır. Ailə büdcəsi ailə üzvlərinin əmək haqqları dövlətin müxtəlif güzəştləri, həyətyanı və şəxsi təsərrüfatlardan əldə olunan gəlirlər hesabına təmin olunur.

Azərbaycanda ailə-məişət həyatının bütün sahələrində ictimai-siyasi həyatda qadınların xüsusi rolu vardır.

Müasir ailələrdə ağsaqqal və ağbirçəklər həm ailə başçısı, həm də əmlaka malik olan hüquqi səlahiyyətli şəxsdir. Lakin bəzı valideynlərin dövlət himayəsinə verilməsinin sosial-psixoloji əsasları vardır. Çünki Azərbaycanlı ailələrdə tarixən kiçiklərin böyüklərə tabeçiliyi labüddür.

Azərbaycanda hələ Sovet hakimiyyəti dövründə inkişaf etmiş iqtisadi, elmi-texniki və mədəni potensial yaranmışdır. Bütün bunlar isə müstəqillik illərində də respublikamızın tam müstəqil dövlət kimi yaşaması üçün zəmin yaratmış və bu gün Azərbaycan müstəqil dövlət kimi yaşayır.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYATLARIN SİYAHISI


1. Azərbaycanın Demoqrafik göstəriciləri (Statistik məcmuə) 2002. Bakı, 2002.
2. Azərbaycan qadını, Bakı, 1999.
3. Asəf Nadirov. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı, Elm, 2001.
4. Asəf Nadirov. Müstəqil iqtisadiyyatımızda olan miras və inkişafın ümumi mənzərəsi. Azərbaycan qəzeti.15-22 sentyabr, 6-7 oktyabr 2001.
5. Azərbaycan XXl əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Bakı, 2001.
6. Azərbaycan Respublikası əhalisinin siyahıya alınması 1999-cu il, Vlll hissə. Bakı, 2001.
7. Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001.
8. Azərbaycan Respublikası əhalisinin siyahıya alınması 1999-cu il, l hissə. Bakı, 2000.
9. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1997.
10. Aqil Əliyev, İlqar Əliyev, Natiq Qasımov. Azərbaycanda bazar münasibətləri şəraitində əhalinin sosial problemləri. Bakı, 2000.
11. Alekperov A. İ. Terrakota drevneqo Azerbaydjana. Baku, Elm, 1994.
12. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sənədləri.
13. Azərbaycan Respublikası Dövlət Qaçqınlar Komitəsinin sənədləri.

14. Benet Sula. Necə yaşayasan ki, yüzü haqlayasan (Qafqaz xalqlarının həyat tərzi) Bakı, Yazıçı, 1989.
15. Çöl etnoqrafik materialları.
16. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı, Azərnəşr, 1981.
17. Həsənzadə Nəriman. «Seçilmiş əsərləri» Bakı. Azərnəşr,1987.
18. Himayədar jurnalı. №18. fevral 2006.
19. İtoqi Vsesoöznoy perepesi naseleniə Azerb.SSR.1989. q.Baku, ÜSU.Azerb. SSR. 1990.
20. Kitabi-Dədə Qorqud. Bakı, Yazıçı, 1988.
21. Kulieva N.M. Sovremennaə selğskaə semğə azerbaydjanüev (po materialam zapadnoy zonı Azerbaydjanskoy Respubliki). Baku, Glm, 1992.
22. Kəbin və ailə haqqında yeni qanun. Bakı. Azərnəşr, 1929.
23. Marağalı Əvhəndi «Cami-Cəm» əsəri. Bakı, Azərnəşr, 1970.
24. Mədinə Gülgün. «Seçilmiş əsərləri» Şerlər və poemalar. Bakı, Azərnəşr, 1986.
25. Mamedov K. Naselenie Azerbaydjana 60 let. Baku, Azerneşr. 1982.
26. Müstəqil Azərbaycan 10 il. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2000.
27. Narimanov İ.Q. Drevnəə zemledelğçeskaə kulğtura Zakavkazğə. Dokladı i soobheniə arxeoloqiə SSSR. 7 mejdunarodnaə konferenüiə doistorö proistor. M., 1966.
28. Raspredelenie semey po çislu i razmeru semey po Azerb.SSR – İz itoqi Vsesoöznoy perepisi naseleniə 1989 qoda. Baku, ÜSU Azerbaydjana,1990. tab. 37-38.
29. Rəcəbova B.Ə. Azərbaycanın orta əsr qadın bəzəkləri (IV-XIII əsrlər) Bakı, Elm, 2000.
30. Respublika qəzeti. Bakı, 2 iyun 2004-cü il.

31. Respublika qəzeti. Bakı, 15 avqust, 2001.
32. R.Göyüşov. «Arzxeoloqiya və din». Bakı, Azərnəşr. 1965.
33. Sbornik materialov dlə opisaniə mestnostey i plemen Kavkaza. İzdanie Upravlenie Kavkazskoqo Uçebnoqo Okruqa. Vıp. Dvadüatıy. Tiflis, 1894.
34. Vsesoöznaə perepisğ naseleniə SSSR 1926 qoda, tom XL. VIII otd. III Zakavkazskaə Soüialistiçeskaə Federativnaə Sovetskaə Respublika. M. Qosudarstvennoe-soüialğno-gkonomiçeskoe izdatelğstvo OQİZ, 1932.

## MÜNDƏRİCAT

Giriş ..........................................................................3
I Fəsil. Müstəqillik illərində azərbaycanlıların ailə-məişət həyatının bəzi aktual məsələlərinə dair. ...................9
Ë 1. Müstəqillik illəri Azərbaycan ailəsinə dair...........9
Ë 2. Müasir ailədə və ictimai həyatda Azərbaycan qadınlarının mövqeyi ........................................................31
Ë 3. Müasir Azərbaycanda nikah və toy mərasimlərinin bəzi məsələləri..........................................45
Ë 4. Müasir ailələrdə böyüklərin yeri, bəzi valideyn-lərin və uşaqların dövlət himayəsinə verilməsinin sosial-psixoloji əsaslarına dair....................................................51
II Fəsil. Qaçqınların və məcburi köçkünlərin ailə-məişət məsələləri barədə ...................................................63
Nəticə ...........................................................................81
İstifadə olunan ədəbiyyatların siyahısı.....................83